RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 85 (10105) 15 may 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycanın yüksək qlobal nüfuzunun növbəti təcəssümü

## WUF13-ün respublikamızda keçirilməsi barədə qərarın verilməsi Bakının mühüm dialoq mərkəzinə çevrilməsinin bariz göstəricisidir

WUF13-ün Bakıda keçirilməsi ilə bağlı qərar Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerini və siyasi çəkisini yeni mərhələyə yüksəldən strateji hadisədir. COP29 kimi ekoloji zirvədən sonra BMT-nin daha bir nüfuzlu platformasının məhz ölkəmizə həvalə edilməsi Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunmasının, beynəlxalq birliyin ölkəmizə etimadının davamlı xarakter aldığının sübutudur. Forum siyasi baxımdan Azərbaycanın qlobal gündəliyi müəyyən edən əsas oyunçulardan biri olduğunu təsdiqləyir.

Dünyanın müxtəlif yerlərindən gələn minlərlə dövlət rəsmisi, beynəlxalq təşkilat rəhbərləri və müstəqil ekspertlər Azərbaycanın inkişaf modelini, multikultural mühitini və modern dövlət quruculuğu prinsiplərini yerindəcə müşahidə edəcəklər. Diplomatik müstəvidə WUF13 ölkəmizi fərqli maraqların kəsişdiyi bir platformaya çevirəcək.

Digər tərəfdən, forum Azərbaycanın işğaldan azad edilmiş ərazilərində apardığı nəhəng quruculuq işlərinin, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının dünya miqyasında tanıdılmasına da böyük töhfə verəcək. Siyasi müstəvidə bu, həm də Azərbaycan-Ermənistan münaqişəsinin artıq tarixə qovuşduğunu və regionun gələcəyinin məhz inkişaf və əməkdaşlıq üzərində qurulduğunu bəyan edən növbəti ismarış olacaq.

Ümumiyyətlə, Azərbaycanın evsahibliyi etdiyi qlobal forumlar ölkəmizin beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirir. Hər mötəbər tədbir Azərbaycanın nüfuzunu bir pillə yüksəyə daşıyır. 2012-ci ildə "Eurovision" Mahnı Müsabiqəsi ilə başlayan bu yol 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları ilə davam edərək Azərbaycanın Qərb-Şərq dünyası arasında unikal mədəniyyət və idman körpüsü olduğunu sübut etdi. Bu tədbirlər ölkəmizin müasir simasını, qonaqpərvərliyini və təşkilatçılıq qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Siyasi və diplomatik müstəvidə isə Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etməsi və bu çərçivədə irəli sürdüyü qlobal təşəbbüslər ölkəmizin nüfuzunu beynəlxalq hüququn və ədalətin müdafiəçisi səviyyəsinə qaldırdı.

5

## Azərbaycanın başlatdığı sülh prosesi

### Bu, bütün region üçün yüksək rifah və güclü əməkdaşlıq deməkdir




Ötən müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət ərazilərimizin işğaldan qurtulmasını təmin etdi. Eyni zamanda Cənubi Qafqazda son 200 ildə hökm sürən, ədalətsizliyə əsaslanan status-kvonun üstündən xətt çəkilməsi ilə nəticələndi. Ulu Öndər Heydər Əliyevə qarşı sovet dövründə başlayan təqiblərdən istifadə edərək yaradılan Qarabağ hərəkatı və onun arxasında duran şovinist qüvvələr, köçəryanlar, sarkisyanlar kimi cinayətkar ünsürlər tarix səhnəsindən silindilər. Məhz 2020-ci ilin Zəfəri və 2023-cü ilin antiterror tədbirləri ilə Azərbaycan separatizmin kitabını bağladı, "boz zona"ları ləğv etdi. Bu, regionun nəfəs alması üçün atılmış ən böyük addım idi. Azərbaycanın tarixi qələbəsinin miqyası hələ də cəmiyyətimiz və dünya tərəfindən tam dərindən dərk olunma mərhələsindədir.

6

## Bakıda keçirilən Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasına yekun vurulub



4

## Regionda yeni təhlükəsizlik arxitekturasını Azərbaycan formalaşdırır



Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi fikirlər regionda yaranmış yeni geosiyasi reallıqların açıq ifadəsidir. Dövlət başçısının da vurğuladığı kimi, bu gün Cənubi Qafqazda sülhün əsas müəllifi Azərbaycandır. Xarici dairələrin, xüsusilə Fransanın Ermənistan üzərindən bölgəyə müdaxilə cəhdləri isə nəticəsiz qalmağa məhkumdur.

7

## Şərqi Zəngəzurun "yaşıl enerji" ilə təminatında daha bir addım

Azərbaycan da bu qlobal trendləri izləyir. Son illər ölkədə günəş və digər bərpaolunan enerji mənbələrinin inkişafı sürətlənib, bir sıra bölgələrdə günəş-elektrik stansiyaları fəaliyyətə başlayıb və enerji istehsalında alternativ mənbələrin payı getdikcə artır. Ölkəmiz coğrafi mövqeyinə görə günəş enerjisi ilə zəngindir - bu, danılmaz faktdır. Azərbaycanda günəşin istiliyi, eləcə də şüaları elektrik və istilik enerjisi üçün böyük imkanlar yaradır, demək olar ki, hər binanın damına panellər qoymaq mümkündür. Mütəxəssislərin hesablamasına görə, ölkə üzrə 1 milyon sosial və ictimai binaya quraşdırılan panellər təxminən 1000 meqavat elektrik enerjisi verə bilər ki, bu




da ildə təxminən 1 milyard kubmetr təbii qaza qənaət deməkdir. Azərbaycanın günəş şüalanmasının illik 2400-3200 saat davam etməsi bu potensialı reallığa çevirir və həm elektrik, həm də istilik enerjisinin istehsalını artırmağa geniş imkan açır.

9

## Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı keçirilir




2

## Tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Müəyyən edilsin ki, Agentlik tullantıların idarə edilməsi (tullantıların əmələ gəlməsi, yığılması, çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması) və tullantı haqlarının toplanması sahəsində dövlət nəzarətini, tənzimləməni və əlaqələndirməni həyata keçirən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olan qurumdur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. aşağıdakılara dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. iki ay müddətində Agentliyin əsasnaməsinin və strukturunun layihələrinə, habelə işçilərinin say həddinə dair;

3.1.2. dörd ay müddətində bu Fərmanın 2-ci hissəsi, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla,"Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun və tullantıların idarə edilməsi ilə bağlı digər normativ hüquqi aktların təkmilləşdirilməsinə dair;

3.1.3. beş ay müddətində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsi ilə əlaqələndirməklə "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2027-2030-cu illər üçün Milli Strategiya" layihəsinə dair;

3.2. Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli və saxlanılma xərclərinin maliyyələşdirilməsi, inzibati bina ilə təmin edilməsi üçün iki ay müddətində zəruri tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2026-cı il*

## Paraqvay Respublikasının Prezidenti zati-aliləri cənab Santyaqo Penyaya

Hörmətli cənab Prezident!

Paraqvay Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Paraqvay arasındakı dostluq münasibətlərinin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Paraqvay xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2026-cı il*

## B.A.Babayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının elektroenergetika sahəsinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Baxış Abutalıb oğlu Babayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2026-cı il*

## Azərbaycan Mühəndislik Akademiyası ilə Xorvatiya Mühəndislər Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanıb




Azərbaycan Mühəndislik Akademiyası ENGINEERS EUROPE və Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO) vasitəsilə Avropa və qlobal mühəndislik ictimaiyyətinin fəal üzvü kimi beynəlxalq əməkdaşlığın inkişafına hər zaman xüsusi önəm verir. Beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərin davamı olaraq, Azərbaycan Mühəndislik Akademiyası ilə Xorvatiya Mühəndislər Assosiasiyası arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Mühəndislik Akademiyasından məlumat verilib.

Azərbaycan tərəfindən memorandumu akademiyanın prezidenti akademik Arif Paşayev, Xorvatiya tərəfindən assosiasiyanın prezidenti Luka Jelic imzalayıblar. Memorandumun məqsədi mühəndislik sahəsində elmi, texniki və peşəkar əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq əlaqələrin gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviq edilməsidir.

Sənədə əsasən tərəflər elmi və texniki informasiya mübadiləsi, beynəlxalq konfranslar, seminarlar və simpoziumların təşkili, mühəndislər və tədqiqatçılar arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də birgə elmi və innovativ layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərəcəklər. Tərəflər mühəndislərin qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə dayanıqlı və innovativ gələcəyin formalaşdırılmasında mühüm rol oynadıqlarını vurğulayıblar.

Memorandum Azərbaycan və Xorvatiya mühəndislik təşkilatları arasında əlaqələrin daha da genişlənməsinə, beynəlxalq təşəbbüs və layihələrin həyata keçirilməsinə töhfə verəcək.

## Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun və Tətbiqi Elmlər İnstitutunun yaradılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 143** **Bakı şəhəri, 14 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamının 1.1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində müasir infrastruktura və beynəlxalq standartlara uyğun elmi tədqiqat və təcrübi istehsalat bazasına malik publik hüquqi şəxs statuslu aşağıdakı elmi müəssisələr yaradılsın:

1.1. Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutu;

1.2. Tətbiqi Elmlər İnstitutu.

2. Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə publik hüquqi şəxslərin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

3.1. bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrini iki ay müddətində təsdiq etsin;

3.2. publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

3.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsi və "Emal edilməmiş almazların ixracı ilə əlaqədar "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğun sertifikatın forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 146** **Bakı şəhəri, 14 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 mart tarixli 622 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsi və "Emal edilməmiş almazların ixracı ilə əlaqədar "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğun sertifikatın forması və verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**
**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**
**AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI**

**QƏRAR**

**№ 142**

**Bakı şəhəri, "12" may 2026-cı il**

### Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2026–2028-ci illər üçün Baş Kollektiv Sazişin bağlanılması haqqında

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası **qərara alırlar:**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 36-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2026–2028-ci illər üçün Baş Kollektiv Saziş bağlanılsın (əlavə olunur).

| Azərbaycan Respublikasının Baş naziri | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti |
|---|---|---|
| Əli Əsədov | Sahib Məmmədov | Məmməd Musayev |

## Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı keçirilir

### Şuşada musiqi bayramı: "Xarıbülbül" festivalında dünya səsləri bir arada









Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, tanınmış mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Xarıbülbül" bu il də Şuşanı musiqi və rəngarəng mədəniyyətlərin ünvanına çevirib. Festivalda təkcə yerli incəsənət nümayəndələri deyil, həm də bir sıra xarici ölkələrdən gələn musiqi kollektivləri və solo ifaçılar bir araya gəlib. Belə ki, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Türkiyə, Yaponiyadan incəsənət xadimləri "Xarıbülbül"ə dəvət olunub.

Bu beynəlxalq tədbirin əsas məqsədi mədəniyyətlərarası əlaqələri gücləndirmək, sənətkarlar arasında yaradıcılıq mübadiləsinə şərait yaratmaq və gənc musiqiçilərin inkişafına dəstək verməkdir.

"Xarıbülbül"ün açılış konsertində Xalq artistləri Polad Bülbüloğlu, Tünzalə Ağayeva, Yusif Eyvazov, Əməkdar artistlər Azər Zadə, Elnarə Məmmədova, Elvin Hoca Qəniyev, Təyyar Bayramov, Əməkdar mədəniyyət işçiləri aşıq Samirə və aşıq Əli, beynəlxalq müsabiqələr laureatı Camal Əliyev, ifaçılar Habil Məmmədov və tələbələri, Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrının solisti Həmid Abdulov, eləcə də İsmayıl Zeynalov, Kiyoşi Ohira (Yaponiya), Düsseldorfda fəaliyyət göstərən "Reyndə alman operası" teatrının solisti Mara Hüseynova, həmçinin Müşfiq Quliyev, Riad Məmmədov, Uğur İşılak (Türkiyə), Azərbaycan Dövlət Rəqs Ansamblı, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Bakı Xoreoqrafiya Akademiyasının tələbələri, Qazaxıstanın "Turan" Etno-Folk Ansamblı, Özbəkistanın "Şodlık" Rəqs Ansamblı, Türkmənistanın "Qalkınış" Rəqs Ansamblı çıxış ediblər.

Festivalın açılış konserti "Qarabağ yallısı" ilə başa çatıb.

İncəsənət xadimləri festival ilə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşüblər.

Yaponiyadan gələn tarzən Ohira Kiyoşi "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalında iştirak etməyin qürurverici olduğunu bildirib. O qeyd edib ki, bu cür tədbirlərin keçirilməsi həm dostluq əlaqələrinin möhkəmlənməsinə, həm də sənətin inkişafına töhfə verir, eyni zamanda Şuşanın gözəlliyini və zəngin mədəni irsini dünyaya tanıdır. O vurğulayıb ki, bu məkanın ab-havası, təbiəti və burada hökm sürən musiqi ruhu onu dərindən təsirləndirib.

Virtuoz skripka ifaçısı, Əməkdar artist Elvin Hoca Qəniyev bu gün babasının doğma yurduna gələrək burada çıxış etməyin onun üçün böyük əhəmiyyət daşıdığını deyib: "Türkiyədə doğulub böyüsəm də, babam əslən şuşalıdır. Buraya ilk dəfədir gəlirəm və bu səfər mənim üçün çox xüsusi bir mənəvi dəyərə malikdir."

Sənətçi qeyd edib ki, bu torpaqda ifa etmək həm məsuliyyət hissini artırır, həm də yaradıcılığına xüsusi bir ilham verir. O əlavə edib ki, festival çərçivəsində müxtəlif ölkələrdən olan musiqiçilərlə bir araya gəlmək və səhnəni bölüşmək onun üçün maraqlı və dəyərli təcrübədir.

Festivalda tələbələri ilə iştirak edən xanəndə Habil Məmmədov bildirib ki, bu mötəbər tədbir gənclərin səhnə təcrübəsi qazanması, peşəkar sənətçilərlə birgə çıxış etməsi və öz yaradıcılıq imkanlarını inkişaf etdirməsi baxımından vacibdir.

Xanəndənin sözlərinə görə, tələbələrin müxtəlif ölkələrdən gələn musiqiçilərlə eyni səhnəni bölüşməsi onların dünyagörüşünün genişlənməsinə və sənətə daha universal baxış formalaşdırmasına da təsir edir.

# Parlament diplomatiyası

## Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Respublikasına işgüzar səfərə gedib



Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Azərbaycan parlament nümayəndə heyəti İkinci Asiya Qadınlar Forumunda iştirak etmək məqsədilə Özbəkistan Respublikasına səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Buxara şəhərinin Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı Özbəkistan Ali Məclisi Senatının üzvü Gülnara Marufova, Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova İkinci Asiya Qadınlar Forumunda çıxış edib





Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Respublikasının Buxara şəhərində keçirilən İkinci Asiya Qadınlar Forumunda iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, forumun açılış mərasimində çıxış edən spiker Sahibə Qafarova Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Asiya Qadınlar Forumunun regional dialoq və əməkdaşlıq üçün daimi platforma kimi təsis edilməsi təşəbbüsünü yüksək qiymətləndirərək, forumun mövzusunun çox mühüm bir prinsipi əks etdirdiyini söyləyib. Onun sözlərinə görə, qadınlara investisiya qoyuluşu davamlı inkişafa, sosial həmrəyliyə və uzunmüddətli sabitliyə investisiya deməkdir. Spiker deyib ki, qadınların səlahiyyətləndirilməsi yalnız sosial məsələ deyil. Bu, davamlı inkişaf, iqtisadi dayanıqlılıq və sosial sabitlik üçün strateji prioritetə çevrilib.

Milli Məclisin Sədri qadınların siyasi, iqtisadi və ictimai həyatda geniş iştirakının daha güclü institutların, inklüziv inkişafın və daha möhkəm cəmiyyətlərin formalaşmasına gətirib çıxardığını bildirib.

Asiya regionunun bugünkü qlobal sistemdə mühüm rol oynadığını deyən spiker Sahibə Qafarova qeyd edib ki, Asiyanın əhalisi, iqtisadi potensialı və müxtəlifliyi onu qlobal inkişafın və beynəlxalq tərəqqinin əsas hərəkətverici qüvvələrindən birinə çevirir. Bu baxımdan, parlamentin sədri regional və beynəlxalq əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edib. Bildirib ki, təcrübə mübadiləsi, qabaqcıl təcrübələrin paylaşılması və əlaqələndirilmiş siyasətlər ümumi məqsədlərimizə nail olmaq üçün vacibdir.

Çıxışında Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair tədbir iştirakçılarına məlumat verən spiker Sahibə Qafarova deyib ki, ölkəmiz qadınların ictimai həyatın bütün sahələrində rolunun təşviqinə yönəlmiş beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir. Onun sözlərinə görə, Azərbaycanda qadın hüquqlarının təmin olunması və gender bərabərliyinin təşviqi dövlət siyasətinin mühüm prioritetlərindəndir. Azərbaycanda qadınlar siyasi, iqtisadi, elmi və mədəni həyatda fəal iştirak edirlər, həmçinin dövlət qurumlarında, diplomatiyada, təhsil və dövlət idarəçiliyində yüksək vəzifələr tuturlar.

Milli Məclisin Sədri xüsusi olaraq vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai və siyasi fəaliyyəti Azərbaycan qadınlarının cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirir. Spiker deyib ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident və tanınmış ictimai-siyasi xadim kimi təhsil, səhiyyə, mədəniyyət və sosial rifah sahələrində mühüm təşəbbüslərin həyata keçirilməsində aparıcı rol oynayır. Onun fəaliyyəti Azərbaycanda qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Ölkəmizdə gender sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərə də toxunan Azərbaycan parlamentinin rəhbəri qeyd edib ki, Milli Məclis də gender siyasətinin formalaşdırılmasına böyük əhəmiyyət verir. 2024-cü ildə keçirilmiş parlament seçkilərindən sonra qadınların Milli Məclisdə təmsilçiliyi daha da artıb və onlar hazırda parlament komitələrində, o cümlədən rəhbər vəzifələrdə fəal rol oynayırlar. Azərbaycan qadın hüquqlarının qanunvericilik səviyyəsində qorunması və bərabər imkanların təmin edilməsi üçün mühüm hüquqi baza yaradıb. Bu istiqamətdə əsas mərhələlərdən biri 2006-cı ildə "Gender bərabərliyi haqqında" qanunun qəbul edilməsi olub. Sahibə Qafarovanın sözlərinə görə, bu qanun ölkə üzrə qadınlar və kişilər üçün bərabər imkanların hüquqi əsasını yaradıb. Bu gün Azərbaycanda məşğul əhalinin demək olar ki, yarısını qadınlar təşkil edir. Onların biznes, təhsil, elm və rəqəmsal iqtisadiyyatda iştirakı davamlı olaraq artır.

Çıxışda həmçinin məlumat verilib ki, Azərbaycanda qadınlar azad edilmiş ərazilərdə, Qarabağda münaqişədən sonrakı bərpa və yenidənqurma işlərinə də mühüm töhfə verirlər. Milli yenidənqurma prioritetlərinə və Böyük qayıdış proqramına uyğun olaraq, qadınlar bu ərazilərdə sosial, iqtisadi və institusional reinteqrasiya prosesində fəal iştirak edir, infrastrukturun bərpasında, ictimai həyatın yenidən qurulmasında və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışının dəstəklənməsində mühüm rol oynayırlar.

O cümlədən təhsil, səhiyyə, dövlət idarəçiliyi və yerli iqtisadi inkişaf sahələrində qadınların uzunmüddətli bərpanın və sosial həmrəyliyin gücləndirilməsinə töhfə verdiyini bildirən spiker Sahibə Qafarova, ümumilikdə qadınların yenidənqurma prosesində fəal iştirakının Azərbaycanın münaqişədən sonrakı inkişaf yanaşmasını əks etdirdiyini diqqətə çatdırıb. O, həmçinin deyib ki, insan kapitalı, o cümlədən qadınların rolu davamlı bərpa və uzunmüddətli inkişaf üçün əsas amillərdən biri hesab olunur.

Çıxışının sonunda Milli Məclisin Sədri bir daha qeyd edib ki, qadınlara investisiya qoyuluşu cəmiyyətlərimizdə davamlı inkişafın və uzunmüddətli sabitliyin əsasını təşkil edir. İrəlilədikcə qadınların daha inklüziv, dinc və davamlı gələcəyin formalaşdırılmasında bərabər iştirakçı və lider kimi öz potensiallarını tam şəkildə reallaşdırmalarını təmin etmək üçün daha güclü beynəlxalq əməkdaşlıq və davamlı siyasi iradə mühüm əhəmiyyət daşıyacaq.

Açılış mərasimində həmçinin Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova, BMT-nin Əhali Fondunun İcraçı direktoru Dien Keyta, BMT-nin Cenevrə Ofisinin rəhbəri Tatyana Valovaya və digərləri çıxışlarında tədbirin əhəmiyyətini və müzakirə olunan mövzuların aktuallığını qeyd edərək forumun işinə uğurlar arzulayıblar.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova BƏƏ Federal Milli Şurasının Sədr müavini ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova İkinci Asiya Qadınlar Forumunda iştirak etmək üçün Özbəkistana işgüzar səfəri çərçivəsində mayın 14-də Buxarada Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının Sədr müavini Maryam Majid Bin Zeneya ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı ölkələrimiz arasında əlaqələrin qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək mühitində inkişaf etdiyi qeyd olunub. Tərəflər münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində ölkələrimizin liderlərinin birgə səylərinin, həmçinin yüksəksəviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyət daşıdığını vurğulayıblar.

Birləşmiş Ərəb Əmirliklərinə səfərlərini xatırlayan Milli Məclisin Sədri keçirdiyi görüşlər və müzakirə olunan məsələlər barədə təəssüratlarını bölüşüb. Görüşdə beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri barədə də fikirlər ifadə olunub. Qeyd olunub ki, ölkələrimiz BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir və qarşılıqlı dəstək nümayiş etdirirlər. Milli Məclisin Sədri BƏƏ-nin parlament təmsilçilərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində iştirakından məmnunluğunu bildirib. Fikir mübadiləsi zamanı İkinci Asiya Qadınlar Forumunun əhəmiyyəti, burada müzakirə olunan məsələlərin vacibliyi barədə də söhbət açılıb. Qeyd edilib ki, belə parlament platformaları, eyni zamanda ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

Görüşdə ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq, qanunverici orqanlarımız arasında da uğurlu əlaqələrin qurulduğu qeyd olunaraq vurğulanıb ki, həm qarşılıqlı əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq bu sahədə müsbət nəticələrin əldə olunmasını şərtləndirib. Söhbətdə qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qruplarının parlamentlərarası əlaqələrin inkişafında əhəmiyyəti diqqətə çatdırılıb.

Fikir mübadiləsi zamanı Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti qeyd edilib, bu sənədin tərəflər arasında əməkdaşlığın daha da genişləndirilməsindəki rolu vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Ali Məclisi Senatının Sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanın Buxara şəhərinə işgüzar səfəri çərçivəsində bu ölkənin Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə edilib, əlaqələrin dərinləşməsində iki ölkənin dövlət başçılarının rolu xüsusi vurğulanıb. Tərəflər Azərbaycan və Özbəkistan prezidentlərinin yüksək siyasi iradəsi sayəsində münasibətlərin daha da genişləndiyini, strateji tərəfdaşlığın məzmun etibarilə yeni mərhələyə yüksəldiyini və hazırda ölkələrimizin bir çox sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinə malik olduğunu bildiriblər.

Söhbət zamanı ölkələrimiz və xalqlarımız arasındakı yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi qeyd olunub. Parlamentlərimizin həm ikitərəfli formatda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirilib. Qanunvericilik orqanlarının rəhbərləri və deputatlar səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər, eləcə də mütəmadi görüşlər bu sahədə münasibətlərin daha da möhkəmlənməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Görüşdə həmçinin İkinci Asiya Qadınlar Forumunun dost və qardaş ölkə Özbəkistanda yüksək səviyyədə təşkil olunduğu qeyd edilərək, bu tədbirin qadınların siyasi, iqtisadi, ictimai həyatda daha fəal iştirakının təşviqinə yönəlmiş təşəbbüslərin daha geniş platformada həyata keçirilməsinə töhfə verəcəyinə inam ifadə olunub.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova Buxarada Türkmənistan Məclisinin Sədri ilə görüşüb



Özbəkistanın Buxara şəhərində keçirilən İkinci Asiya Qadınlar Forumunda iştirak edən Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Tərəflər dövlət başçıları arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqun ikitərəfli əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynadığını bildiriblər.

Söhbət zamanı İkinci Asiya Qadınlar Forumunun əhəmiyyətindən danışılaraq, onun qadınların ictimai-siyasi həyatda iştirakının artırılması, müxtəlif ölkələrin qadın parlamentariləri arasında əməkdaşlığın genişlənməsi baxımından mühüm rol oynadığı vurğulanıb. Sahibə Qafarova forumun qadınların qərarqəbuletmə proseslərində rolunun gücləndirilməsinə, eləcə də iştirakçı ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafına və regional həmrəyliyin möhkəmlənməsinə töhfə verdiyini vurğulayıb.

Parlamentlərarası münasibətlər barədə danışan Sahibə Qafarova bu sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini deyib. Qeyd olunub ki, hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Bildirilib ki, deputatlar beynəlxalq parlament təşkilatları çərçivəsində də əməkdaşlıq edirlər.

Dünyagözəl Qulmanova da ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsini qeyd edərək, qarşılıqlı səfərlərin və sıx təmasların münasibətlərin daha da dərinləşməsinə töhfə verdiyini vurğulayıb.

Görüşdə beynəlxalq və regional platformalarda əməkdaşlığın möhkəmləndirilməsi, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Bakıda keçirilən Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasına yekun vurulub







Mayın 14-də "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirə Latın Amerikası, Afrika, Asiya, Sakit okean hövzəsini əhatə edən ümumilikdə 114 ölkədən QHT təmsilçiləri qatılıb.

Əvvəlcə təşkilatın birillik fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Qlobal Cənub dünya arenasında mühüm rol oynayır. Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir. Biz coğrafi, tarixi, mədəni cəhətdən və həmçinin tale etibarilə Qlobal Cənubun bir hissəsiyik.

O qeyd edib ki, Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi bütün çətinlikləri və problemləri, o cümlədən tarixi mirası tam və əhatəli şəkildə anlayır. Çünki Azərbaycan da müstəqillik illəri və bütün tarixi boyu bu çətinliklərin və problemlərin hamısından keçib.

Hikmət Hacıyev xüsusilə müstəmləkəçilik və neomüstəmləkəçilik elementlərini vurğulayıb. Nəzərə çatdırıb ki, Qlobal Cənub ölkələri tarixin müxtəlif dövrlərində bundan çox əziyyət çəkiblər. Bu, bəşəriyyətin üzündə bir yaradır, lakin təəssüf edirik ki, bu təcrübə qlobal müstəvidə yeni forma və təzahürlər alaraq davam etməkdədir. Azərbaycan 2019-cu ildən 2022-ci ilə qədər Qoşulmama Hərəkatına sədrlik edərkən neomüstəmləkəçiliyə qarşı mübarizəni əsas prioritetlərindən biri kimi müəyyən edib.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev deyib ki, bugünkü görüş təkcə institusional bir mərhələ deyil, həm də Azərbaycanda keçirilən COP29 zamanı yaranan həmrəylik, dialoq və əməkdaşlıq ruhunun, Qlobal Cənubun yaradılmasının davamıdır. Eyni zamanda Azərbaycanın Cənub-Cənub əməkdaşlığının gücləndirilməsi, dialoq və praktiki fəaliyyət üçün inklüziv beynəlxalq platformalar yaratmaq baxımından davamlı öhdəliyidir.

Onun sözlərinə görə, bu platforma dialoq üçün bir məkan olmaqdan daha çoxdur. Bu, fəaliyyət qüvvəsidir. Bu gün Bakıda Baş Assambleyanın keçirilməsi bu vizyonun reallığa çevrildiyinin açıq göstəricisidir.

Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli Qlobal Cənub Platformasının vətəndaş cəmiyyətinin mühüm və qalıcı miraslarından biri kimi qəbul edildiyini deyib. Bildirib ki, platforma artıq beynəlxalq təşkilatlar və nüfuzlu mərkəzlər tərəfindən tanınır. Tədbirdə həmçinin BMT-nin Azərbaycandakı müvəqqəti rezident-əlaqələndiricisi İqor Qarafuliç BMT Baş katibinin Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının iştirakçılarına ünvanladığı müraciəti səsləndirib.

Müraciətdə bildirilib ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın çoxtərəflilik, beynəlxalq əməkdaşlıq və qlobal səviyyədə inklüziv iştirakın təşviqi istiqamətindəki davamlı səylərini yüksək qiymətləndirir.

Qeyd edilib ki, Qlobal Cənub QHT Platforması qlobal həmrəylik, dialoq və tərəfdaşlıq üçün mühüm mexanizm rolunu oynayır. Müraciətdə həmçinin inklüziv inkişafın təşviqi, dayanıqlılığın gücləndirilməsi, effektiv çoxtərəflilik və əməkdaşlığın möhkəmləndirilməsi, xüsusilə Qlobal Cənuba dəstək baxımından qlobal öhdəliklərin yerinə yetirilməsinin və heç kimin diqqətdən kənarda qalmamasının vacibliyi vurğulanıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri, WUF13 Təşkilat Komitəsinin üzvü Aygün Əliyeva nəzərə çatdırıb ki, bu gün dünya mürəkkəb geosiyasi böhranlar, iqlim dəyişikliyi, humanitar çağırışlar və artan bərabərsizliklərlə üz-üzədir. Belə bir dövrdə Qlobal Cənubun baxış bucağı daha aydın və daha güclü şəkildə eşidilməlidir.

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Khatib tədbirin əhəmiyyətini qeyd edib. O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin vətəndaş cəmiyyətinin Cənub-Cənub və üçtərəfli əməkdaşlığın inkişafında əvəzolunmaz olduğuna tam inandığını söyləyib.

Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunun Məsləhət Şurasının sədri Luis Gallegosun sözlərinə görə, bu gün xalqlarımızın və ölkələrimizin üzləşdiyi çoxsaylı çağırışlarla mübarizə aparmaq üçün əvvəlkindən də daha çox birləşməyimiz tələb olunur.

Dağıdıcı hərəkətlərə, parçalanmaya yox deyən Luis Gallegos dialoq, danışıqlar və konsensusun yaradılmasının vacibliyini qeyd edib.

Somali Federativ Respublikası Prezidentinin müşaviri, "Sadar" İnstitutunun təsisçisi və baş icraçı direktoru Mohamed Osman Mohamoud bildirib ki, Azərbaycan bu gün həm regional, həm də sivilizasiyalar arasında bir körpü kimi çıxış edir, dialoqun, sülhün və dayanıqlı inkişafın təşviqi istiqamətində mühüm addımlar atır.

İsveçrənin Qlobal Su, Ətraf Mühit və Sağlamlıq İnstitutunun təsisçisi Nidal Salim qeyd edib ki, Qlobal Cənubda sürətli şəhər transformasiyası dövründə forumun ilk dəfə Cənubi Qafqazda keçirilməsi xüsusilə əhəmiyyətlidir. Bu tədbir beynəlxalq görüşdən daha artığıdır. Bu gün Qlobal Cənub insanlığın əsasən Afrikada, Asiyada, Latın Amerikasında və digər inkişaf etməkdə olan regionlardakı şəhərlərdə yaşayacağı bir dövrə qədəm qoyub.

Tədbir çərçivəsində Qlobal Cənub QHT Platformasının institusional strukturu və fəaliyyət mexanizmlərinə dair çərçivə sənədi qəbul edilib.

Daha sonra Qlobal Cənub QHT Platformasının (GSNP) Baş katibi və regionlar üzrə onun müavinləri seçilib.

Azərbaycan təmsilçisi Fuad Kərimli GSNP-nin Baş katibi seçilib. Beləliklə, qarşıdakı 5 il müddətində təşkilata sədrliyi Azərbaycanın QHT təmsilçisi edəcək. Keniya təmsilçisi Mithika Mwenda GSNP Baş katibinin Afrika regionu, Özbəkistan təmsilçisi Bobur Bekmurodov Asiya regionu, Ekvador təmsilçisi Luis Gallegos Latın Amerikası regionu, Filippindən olan Cecile Guidote-Alvarez isə Sakit okean regionu üzrə müavini seçiliblər.

GSNP-nin rəhbər strukturuna seçilənlər təqdimatlarla çıxış ediblər.

Sonra Baş Assambleya işini panel iclasları ilə davam etdirib.

"Qlobal Cənub: Mövqelərin tənzimlənməsi və strateji əməkdaşlıq" mövzusunda panel iclasa Qlobal Cənub QHT Platformasının Baş katibi Fuad Kərimli moderatorluq edib.

Birləşmiş Millətlər Universitetinin (UPEACE) Vyana və Cenevrədəki BMT ofisləri yanında səfiri David Fernandez Puyana, BMT-nin Məskunlaşma Proqramının İdarə Heyətlərinin keçmiş katibi və Hökumətlərarası Əlaqələr şöbəsinin rəhbəri Christian Mensah, Meksikanın Azərbaycandakı keçmiş səfiri Rodrigo Labardini və Keniyanın Maasai Mara Universitetinin rektoru Peninah Aloo-Obudho Azərbaycanda keçirilən Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatının xalqlarının dünyanın ən vacib çoxtərəfli və qlobal təşkilatı olan BMT-nin dəyərlərini, ruhunu və məqsədini necə təmsil etdiyinə dair aydın nümunə olduğunu diqqətə çatdırıblar. Çıxışçılar Azərbaycanın yerli aktorlar ilə qlobal çərçivələr arasında körpü rolunu oynayan platformanın gələcəkdə institusionallaşdırılmasına uzunmüddətli inkişaf baxımından yaxşı mövqedə olduğunu qeyd ediblər. Onlar həmçinin Qlobal Cənubda sosial-iqtisadi bərabərliyin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Tədbir çərçivəsində keçirilən ikinci panel iclasın mövzusu isə "Bakı Şəhərsalma Həftəsi: İnklüziv inkişaf və davamlı şəhər modelləri - Qlobal Cənub təcrübəsi" olub.

Qlobal Cənub QHT Platformasının nümayəndəsi Nədimə Rəhimlinin moderatorluğu ilə keçirilən panel iclasda iqlim dəyişikliyi üzrə ekspert İsa Əliyev, Əlilliyi olan şəxslərin hüquqları üzrə "I Am Human" Cəmiyyətinin sədri Asiya Abdel Mutaleb Yaği, "Elm və Texnologiya üçün Bir kəmər, bir yol Alyansı" baş katibinin müavini, professor Renying Li, Qlobal Sülh məzunu, hüquqşünas və qlobal sülh səfiri, İctimai Siyasətlər və Diplomatiya İnstitutunun (IPPDR) regional direktoru Blanca Mujica Acuna Judith çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu mövzu artıq bütün bəşəriyyəti narahat edən strateji bir çağırışdır. Müasir dövrümüzdə dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və proqnozlara görə yaxın 20-30 ildə bu rəqəm 70 faizdən çox olacağı gözlənilir. Bu isə artıq şəhərlərin gələcək dünyanın taleyində oynayacağı mühüm roldan xəbər verir. Bu baxımdan şəhərlər yeni-yeni çağırışlar yaradır və davamlı şəhərsalma siyasətinin gələcəkdə vacibliyini aydın şəkildə göstərir. Qeyd edilib ki, inklüziv şəhər tək bir element üzərində deyil, gündəlik həyatı formalaşdıran qarşılıqlı əlaqəli sistemlər üzərində qurulur. Eyni zamanda inklüziv iqtisadiyyat olmadan inklüziv şəhər mövcud ola bilməz.

Sonda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasının yekun bəyannaməsi qəbul edilib.

# YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub



Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin hər iki ölkənin maraqlarına cavab verdiyi vurğulanıb.

Azərbaycan ilə Çinin müstəqil siyasət yürüdən dost ölkələr kimi bir-birinin mənafelərinin qorunmasına xüsusi diqqət yetirdikləri bildirilib. Beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyinin əhəmiyyəti vurğulanıb. Öz növbəsində, Birləşmiş Millətlər Təşkilatının beş daimi üzvündən biri olan Çinin Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsinin etibarlı tərəfdaşlıq örnəyi kimi böyük dəyərə malik olduğu diqqətə çatdırılıb.

Yüksəksəviyyəli siyasi dialoq və intensiv diplomatik təmaslar fonunda iqtisadi-ticari, nəqliyyat-logistika, energetika, o cümlədən "yaşıl enerji", elm, təhsil, innovativ texnologiyalar, mədəni, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinin strateji prioritet kimi dövlət başçılarının xüsusi diqqət mərkəzində olduğu bildirilib.

Çinin qlobal əhəmiyyətli "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olan Azərbaycanın Asiya ilə Avropa arasında əlverişli coğrafi mövqeyindən və tranzit imkanlarından səmərəli istifadənin Orta dəhlizin inkişafına təkan verdiyi vurğulanaraq ölkəmizin Zəngəzur dəhlizi layihəsinin yeni platforma kimi Avrasiyada dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə və çoxtərəfli işbirliyinə hədəfləndiyi qeyd olunub.

Çoxqütblü dünya nizamına transformasiya şəraitində Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında əlaqələrin inkişafı baxımından əlamətdar olmadığı, eyni zamanda Avrasiyada, o cümlədən Qlobal Cənub coğrafiyasında davamlı və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi üçün mühüm əhəmiyyət daşıdığı bildirilib. Beynəlxalq hüququn böhranı fonunda Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğunun önəminə diqqət çəkilib.

Görüşdə nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmi vurğulanıb.

2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyəti diqqətə çatdırılaraq məqsədyönlü birgə fəaliyyətin ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə və müştərək maraqların təmininə xidmət etdiyi bildirilib. Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir



Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Partiya Məktəbinin birinci prorektoru, nazir Si Çuntao ilə görüşü keçirilib.

Görüşdə iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin bu günədək uğurla yerinə yetirildiyi, qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi bildirilib.

İstər Azərbaycan, istərsə də Çində gənclərlə siyasi-ideoloji işin xüsusi diqqət mərkəzində saxlanıldığı qeyd edilib. Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüş zamanı Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə ÇKP MK Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Memorandumu ÇKP MK Partiya Məktəbinin birinci prorektoru Si Çuntao və DİA-nın rektoru, akademik Urxan Ələkbərov imzalayıblar.

Memorandumda əksini tapmış müddəaların icrasının tərəflər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsini təmin etməklə dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində mühüm nailiyyətlərə yol açacağına inam ifadə olunub.

Nümayəndə heyətinin Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti, nazir Pin Cinhuy ilə görüşündə isə hər iki ölkədə elm və təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu vurğulanıb, bu istiqamətdə beynəlxalq əməkdaşlığın önəminə diqqət çəkilib. Elmi-tədqiqat institutları arasında əlaqələrin genişləndirilməsi, birgə araşdırmaların aparılması, akademik mübadilə proqramlarının təşviqi, eləcə də sosial elmlər sahəsində qarşılıqlı təcrübə paylaşımının artırılması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Bundan sonra YAP nümayəndə heyətinin Çin Arxeoloji Muzeyinə ekskursiyası təşkil edilib. Sosial Elmlər Akademiyasının vitse-prezidenti Cao Ruy ilə keçirilən görüşdə tarix elminin qarşılaşdığı yeni çağırışlar fonunda rəqəmsallaşma və süni intellekt texnologiyalarının elmi-tədqiqat prosesinə inteqrasiyası, tarixi irsin qorunması, elmi nəşrlərin qarşılıqlı mübadiləsi, ortaq layihələrin hazırlanması, eləcə də alimlər və tədqiqatçılar arasında birbaşa əlaqələrin qurulması istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti Konfutsi məbədini də ziyarət edib.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*




**Azərbaycan növbəti tarixi hadisənin ərəfəsindədir. Ölkəmiz BMT miqyasında ikinci ən böyük tədbir olan XIII Ümumdünya Şəhərsalma Forumuna (WUF13) evsahibliyi edəcək. 17-22 may tarixlərində Bakıda keçiriləcək forumda müxtəlif ölkələrdən ümumilikdə 32 mindən çox iştirakçının qatılması gözlənilir.**

WUF13 üçün 180-dən çox ölkə qeydiyyatdan keçib. Tədbir çərçivəsində təşkil olunacaq pavilyonlarda 41 ölkə iştirak edəcək. 2001-ci ildə təsis edilən Ümumdünya Şəhərsalma Forumu BMT-nin qanunvericilik səlahiyyəti olmayan ən böyük qlobal tədbiridir. Forum bilik və təcrübə mübadiləsi baxımından güclü platforma rolunu oynayır və hər kəs üçün açıqdır.

Qlobal urbanizasiya proseslərinin sürətləndiyi müasir dövrdə şəhərlərin dayanıqlı inkişafı, yeni şəhərsalma modelləri, iqlim dəyişikliyinin şəhər mühitinə təsiri və sosial inklüzivlik kimi mövzular beynəlxalq gündəliyin prioritetlərinə çevrilib. Bu kontekstdə dünyanın ən mötəbər platformalarından sayılan Ümumdünya Şəhərsalma Forumuna Bakının evsahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun və qlobal proseslərdə artan rolunun bariz göstəricisidir.

Forumun mahiyyəti yalnız şəhərsalma və memarlıq məsələləri ilə bitmir. Bu, urbanizasiya, "yaşıl enerji", sosial infrastruktur və rəqəmsal idarəetmə kimi sahələrdə gələcək modellərin müzakirə olunduğu strateji platformadır. Paytaxtımızda reallaşdırılan genişmiqyaslı yenidənqurma və abadlıq işləri, müasir infrastruktur layihələri, nəqliyyat sisteminin modernləşdirilməsi və ekoloji təşəbbüslər ölkəmizin bu sahədə zəngin təcrübə topladığını göstərir. Azərbaycan artıq irimiqyaslı beynəlxalq tədbirlərin idarə edilməsi, təhlükəsizlik, logistika və diplomatik koordinasiya sahəsində kifayət qədər yüksək peşəkarlıq formalaşdırıb. Ölkəmizdə keçirilən mühüm tədbirlərin yüksək təşkilatçılıq səviyyəsi dövlətin müsbət imicinə birbaşa xidmət edir. WUF13 Azərbaycanın öz inkişaf modelini dünyaya təqdim etməsi üçün unikal imkan yaradır.

Mötəbər tədbirin müxtəlif ölkələrdən hökumət rəsmilərini, beynəlxalq qurumların rəhbərlərini, şəhərsalma üzrə mütəxəssisləri, akademik və özəl sektor nümayəndələrini bir araya gətirməsi Azərbaycanın dialoq və əməkdaşlıq mərkəzi kimi rolunu daha da möhkəmləndirəcək. Forum yeni tərəfdaşlıqların və investisiya əlaqələrinin qurulmasına, infrastruktur layihələrinə xarici marağın artmasına da geniş üfüqlər açacaq. Tədbir ölkəmizin iqtisadi və turizm potensialının beynəlxalq miqyasda təbliği baxımından da böyük dividendlər vəd edir.




# Azərbaycanın yüksək qlobal nüfuzunun növbəti təcəssümü

## WUF13-ün respublikamızda keçirilməsi barədə qərarın verilməsi Bakının mühüm dialoq mərkəzinə çevrilməsinin bariz göstəricisidir

WUF13-ün Bakıda keçirilməsi ilə bağlı qərar Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerini və siyasi çəkisini yeni mərhələyə yüksəldən strateji hadisədir. COP29 kimi ekoloji zirvədən sonra BMT-nin daha bir nüfuzlu platformasının məhz ölkəmizə həvalə edilməsi Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunmasının, beynəlxalq birliyin ölkəmizə etimadının davamlı xarakter aldığının sübutudur. Forum siyasi baxımdan Azərbaycanın qlobal gündəliyi müəyyən edən əsas oyunçulardan biri olduğunu təsdiqləyir.

Dünyanın müxtəlif yerlərindən gələn minlərlə dövlət rəsmisi, beynəlxalq təşkilat rəhbərləri və müstəqil ekspertlər Azərbaycanın inkişaf modelini, multikultural mühitini və modern dövlət quruculuğu prinsiplərini yerindəcə müşahidə edəcəklər. Diplomatik müstəvidə WUF13 ölkəmizi fərqli maraqların kəsişdiyi bir platformaya çevirəcək.

Digər tərəfdən, forum Azərbaycanın işğaldan azad edilmiş ərazilərində apardığı nəhəng quruculuq işlərinin, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının dünya miqyasında tanıdılmasına da böyük töhfə verəcək. Siyasi müstəvidə bu, həm də Azərbaycan-Ermənistan münaqişəsinin artıq tarixə qovuşduğunu və regionun gələcəyinin məhz inkişaf və əməkdaşlıq üzərində qurulduğunu bəyan edən növbəti ismarış olacaq.

Ümumiyyətlə, Azərbaycanın evsahibliyi etdiyi qlobal forumlar ölkəmizin beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirir. Hər mötəbər tədbir Azərbaycanın nüfuzunu bir pillə yüksəyə daşıyır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi ilə başlayan bu yol 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları ilə davam edərək Azərbaycanın Qərb-Şərq dünyası arasında unikal mədəniyyət və idman körpüsü olduğunu sübut etdi. Bu tədbirlər ölkəmizin müasir simasını, qonaqpərvərliyini və təşkilatçılıq qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Siyasi və diplomatik müstəvidə isə Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etməsi və bu çərçivədə irəli sürdüyü qlobal təşəbbüslər ölkəmizin nüfuzunu beynəlxalq hüququn və ədalətin müdafiəçisi səviyyəsinə qaldırdı. Xüsusilə pandemiya dövründə Azərbaycanın göstərdiyi liderlik və "peyvənd millətçiliyi"nə qarşı apardığı mübarizə Bakını qlobal həmrəyliyin mərkəzinə çevirdi. Bu, dünya birliyinin Azərbaycanın iqtisadi gücünə, mürəkkəb qlobal problemlərin həllindəki vasitəçilik missiyasına verdiyi yüksək qiymətdir.

Mühüm qlobal tədbirlər Azərbaycan üçün həm də strateji təbliğat vasitəsidir. Minlərlə xarici nümayəndənin, dövlət başçılarının və dünya mediasının Bakıya toplaşması Azərbaycanın bölgədə yaratdığı yeni reallıqların beynəlxalq səviyyədə qəbul edilməsini sürətləndirir, ölkəmizin beynəlxalq arenada manevr imkanlarını genişləndirir.

Ümumdünya Şəhərsalma Forumu da Azərbaycan üçün həm qlobal həmrəyliyin gücləndirilməsi, həm də ölkənin beynəlxalq reytinqlərdəki yerinin möhkəmlənməsi baxımından əvəzsizdir. Bakı bəşəriyyətin gələcək taleyinin, dayanıqlı yaşayış mühitinin və qlobal urbanizasiya siyasətinin formalaşdığı mühüm siyasi paytaxtlardan biri olduğunu bütün dünyaya göstərəcək. Azərbaycan özünün yüksək təşkilatçılıq imkanlarını və bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirməklə yanaşı, regional sabitliyin və qlobal inkişafın mərkəzi olduğunu bir daha təsdiqləyəcək. Forum çərçivəsində qurulacaq siyasi əlaqələr, formalaşacaq tərəfdaşlıqlar uzunmüddətli perspektivdə Azərbaycanın xarici siyasət kursunun uğurlu davamını şərtləndirəcək. Bakıdan dünyaya yayılacaq yeni ideyalar, qəbul ediləcək qərarlar və qurulacaq tərəfdaşlıqlar bəşəriyyətin ortaq gələcəyinin dizayn edilməsində Azərbaycanın silinməz imzasını qoyacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Qlobal şəhərçilik dialoqunun 13-cü ünvanı

Özünün artan nüfuzu, strateji mövqeyi və uğurlu diplomatik təşəbbüsləri ilə dünyanın diqqət mərkəzində olan Bakı BMT-nin daha bir mötəbər beynəlxalq tədbirinə - WUF13-ə evsahibliyi etməyə hazırlaşır. Bu, sadəcə növbəti beynəlxalq tədbir deyil, həm də Azərbaycanın qlobal siyasi nüfuzunun, ölkəmizin beynəlxalq etimad kapitalının və Bakının dünyanın ən vacib platformalarından birinə çevrilməsinin növbəti təsdiqidir.







Bu gün Azərbaycan Avrasiya məkanının dinamik inkişaf edən, təhlükəsiz ölkələrindən biri kimi qəbul olunur. Tarixlə müasirliyin qovuşduğu ölkəmiz son illər çoxsaylı beynəlxalq tədbirlərə, zirvə görüşlərinə, idman yarışlarına və qlobal forumlara evsahibliyi edərək özünü təsdiqləyib. Məhz bu səbəbdəndir ki, dünyanın şəhər inkişafı və urbanizasiya sahəsində ən nüfuzlu platformalarından biri olan WUF13-ün Bakıda keçirilməsi təsadüfi seçim deyil, Azərbaycanın qazandığı böyük beynəlxalq etimadın nəticəsidir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi tarixi Zəfərdən sonra ölkəmizin beynəlxalq siyasi çəkisi daha da artıb. Ölkəmizin regional təhlükəsizlik, nəqliyyat-kommunikasiya layihələri, enerji diplomatiyası və sülh təşəbbüsləri dünya miqyasında diqqətlə izlənilir. Bu reallıq fonunda Azərbaycan, o cümlədən Bakı beynəlxalq dialoq, əməkdaşlıq və sabitlik məkanı kimi də qəbul edilir.

Xatırladaq ki, Ümumdünya Şəhərsalma Forumu - World Urban Forum (WUF) 2001-ci ildə BMT tərəfindən yaradılıb və ilk forum 2002-ci ildə Nayrobi şəhərində keçirilib. Forumun əsas məqsədi dünyada sürətli urbanizasiya, yaşayış mühiti, şəhər infrastrukturunun inkişafı, iqlim dəyişiklikləri və dayanıqlı şəhər planlaşdırılması ilə bağlı qlobal çağırışları müzakirə etməkdir. Forum hər iki ildən bir keçirilir və ötən illər ərzində Barselona, Vankuver, Abu-Dabi, Katovitse və Qahirə kimi şəhərlər bu mühüm tədbirə evsahibliyi edib. 2026-cı ildə isə bu mötəbər siyahıya Bakı da daxil olub.

WUF13-ün əsas mövzusu "Dünya üçün yaşayış məkanı: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar"dır. Forumda dünya şəhərlərinin gələcəyi, o sıradan mənzil siyasəti, urban inkişaf, sosial inklüzivlik, ekoloji dayanıqlıq və innovativ idarəetmə modelləri ətraflı müzakirə olunacaq.

Forumda dünyanın müxtəlif ölkələrindən təxminən 30 mindən çox təmsilçinin iştirakı gözlənilir. Xatırladaq ki, 2024-cü ildə Qahirədə keçirilən WUF12-də 25 mindən çox iştirakçı qeydiyyatdan keçmişdi. Dövlət nümayəndələri, nazirlər, merlər, şəhərsalma üzrə ekspertlər, investorlar, akademik dairələrin təmsilçiləri, beynəlxalq təşkilatların rəhbərləri və vətəndaş cəmiyyəti və media nümayəndələri artıq gəlməyə başlayıblar.

Paytaxtda foruma hazırlıq yekunlaşıb. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, qonaqların yerləşdirilməsi, logistika, təhlükəsizlik, könüllülərin hazırlanması, media koordinasiyası və tədbir məkanlarının tam hazır vəziyyətə gətirilməsi istiqamətində bütün işlər görülüb.

Bakı Olimpiya Stadionu ərazisində keçiriləcək tədbirin Azərbaycan üçün siyasi əhəmiyyəti olduqca böyükdür. İlk növbədə ölkəmiz yenidən qlobal siyasi və iqtisadi dialoq mərkəzi kimi təqdim olunacaq. Azərbaycan urbanizasiya, "ağıllı" şəhərlər və kəndlər, "yaşıl enerji", işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı inkişaf sahəsində öz təcrübəsini beynəlxalq auditoriyaya təqdim etmək imkanı əldə edəcək. Xüsusən işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı" şəhər və kənd konsepsiyaları beynəlxalq maraq doğura bilər.

İqtisadi baxımdan isə forum ölkəmiz üçün yeni investisiya imkanları, turizm gəlirləri, xidmət sektorunun inkişafı və beynəlxalq biznes əlaqələrinin genişlənməsi baxımından mühüm platformadır. Sözsüz ki, on minlərlə xarici qonağın ölkəmizə səfəri hotelçilik, nəqliyyat, restoran biznesi və digər xidmət sahələrinin canlanması deməkdir.

Bakının belə tədbirlərə evsahibliyi etməsi heç də yeni deyil. "Formula-1" Azərbaycan "Qran-pri"si, UEFA Avro 2020, COP29 kimi mötəbər tədbirlər artıq sübut edib ki, Azərbaycan ən yüksək beynəlxalq standartlara cavab verən təşkilatçılıq imkanlarına malikdir. Bu təcrübə WUF13 üçün də böyük üstünlük yaradır.

Bakı Xəzərin sahilində gözəl şəhər olmaqla yanaşı, sülhün, dialoqun, multikultural dəyərlərin və beynəlxalq əməkdaşlığın ünvanıdır. Burada Şərqlə Qərb, Şimalla Cənub arasında yeni körpülər qurulur, bu günün və gələcəyin şəhərləri haqqında qərar qəbul edilir.

WUF13-ün Bakıda keçirilməsini Azərbaycanın beynəlxalq nüfuzunun növbəti uğuru hesab etməkdə tam haqlıyıq. Bu forum bir daha nümayiş etdirəcək ki, ölkəmiz qlobal çağırışların müzakirəsində fəal iştirak edir, təşəbbüslər göstərir və beynəlxalq əməkdaşlığa real töhfələr verir.

Dünyanın diqqəti yenidən Azərbaycana - Bakıya yönəlib. Və Bakı bir daha sübut edir ki, o, yalnız Azərbaycanın yox, həm də qlobal dialoqun paytaxtıdır.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Nayrobidən başlanan yol

## WUF13 iştirakçı sayına görə ən böyük sessiya olmağa namizəddir

Dünya sürətlə dəyişir və bunun ən bariz nümunəsi şəhərlərdir. Hazırda bəşəriyyətin yarısından çoxu şəhərlərdə yaşayır. Proqnozlar göstərir ki, 2030-cu ilə qədər bu rəqəm dünya əhalisinin 60 faizinə çatacaq. Bu statistik reallıq o deməkdir ki, qarşıdakı onillikdə dünya əhalisinin demək olar ki, bütün artımı məhz şəhər ərazilərinin payına düşəcək.

Şəhərlər qlobal ÜDM-in (Ümumi Daxili Məhsul) 80 faizindən çoxunu istehsal edən iqtisadi mühərriklərdir. Şəhərlərin həm iqtisadiyyatın, həm də iqlim dəyişikliyi ilə mübarizənin mərkəzi olduğunu nəzərə alan Birləşmiş Millətlər Təşkilatı hələ 2001-ci ildə unikal bir platformanın, Ümumdünya Şəhərsalma Forumunun (WUF) əsasını qoydu. BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən idarə olunan bu forum hər kəsin səsini eşitdirə bildiyi, gələcəyin şəhər modelinin müzakirə edildiyi nəhəng bir "beyin mərkəzi"dir.

Forumun fəaliyyət qaydaları digər BMT iclaslarından fərqlənir. Belə ki, bura prosedurlardan daha çox birbaşa dialoqa, fikir mübadiləsinə və ən yaxşı təcrübələrin paylaşılmasına üstünlük verilən azad bir düşüncə platformasıdır. Bu platforma həm də yerli icmaların, qeyri-hökumət təşkilatlarının və özəl sektorun səsinin qlobal siyasətçilərə çatdırılması üçün mühüm körpü rolunu oynayır. Forumun əsas fəlsəfəsi dayanıqlı şəhərlər qurmaq, insanların həyat keyfiyyətini artırmaq və urbanizasiyanı xaosdan inkişaf vasitəsinə çevirməkdir. 2002-ci ildən bəri dünya miqyasında müxtəlif qitələri gəzən bu möhtəşəm tədbir artıq qlobal şəhərsalma siyasətinin ana xəttini müəyyən edən ən mühüm platforma sayılır.

WUF sessiyaları 2002-ci ildə Keniyanın paytaxtı Nayrobi şəhərində 80 ölkədən 1200 iştirakçı ilə başladı. O zaman "Dayanıqlı Şəhərsalma" mövzusu yeni bir çağırışın əsasını qoydu. Lakin forum illər keçdikcə miqyasını daha da genişləndirdi. 2004-cü ildə Barselonada mədəniyyətlərin kəsişməsi, 2006-cı ildə Vankuverdə inklüziv şəhərlər, 2008-ci ildə isə Çinin Nankin şəhərində "Harmonik Şəhərsalma" konsepsiyası müzakirə olundu. Vankuverdə səslənən həyəcan təbili hələ də unudulmayıb, inkişaf etməkdə olan ölkələrin şəhər əhalisi o qədər sürətlə artır ki, yaxın 30 ildə hər həftə 1 milyonluq yeni bir şəhərin tikilməsinə bərabər infrastruktur tələb olunur. Nankində verilən mesaj hələ də aktualdır, əgər şəhər həyatının bədəli ətraf mühitlə ödənilirsə, orada harmoniyadan söz açmaq olmaz. 2008-ci ildə vurğulandı ki, cəmiyyətin bir hissəsi dəbdəbə içində yaşarkən digər hissəsi təməl ehtiyaclardan məhrumdursa, orada sosial harmoniya mümkün deyil. Harmonik şəhərsalma konsepsiyası fiziki, mədəni və tarixi varlıqların tam inteqrasiyasını nəzərdə tutur.

2010-cu ildə Rio-de-Janeyroda "Şəhər Hüququ" mövzusu ilə sosial bərabərsizliklərə diqqət çəkildi, 2012-ci ildə Neapolda və 2014-cü ildə Medellində şəhər ədaləti və gələcəyin demokratik şəhərləri prioritet oldu. Medellin sessiyasında inklüziv idarəetmə və innovativ maliyyələşdirmə mexanizmləri şəhərlərin həyat damarı kimi müəyyən edildi. Burada vurğulandı ki, təhlükəsiz şəhər həm də ədalətli şəhərdir. Hər bir forum özündən sonrakı üçün yeni bir təcrübə və bilik bazası qoydu. Xüsusilə, 2018-ci ildə Kuala-Lumpurda keçirilən 9-cu sessiya, 164 ölkədən 19 mindən çox iştirakçını bir araya gətirərək "Yeni Şəhər Gündəliyi"nin icrasına start verdi. 2020-ci ildə Əbu-Dabi və 2022-ci ildə Katovitse sessiyaları mədəniyyət, innovasiya və gələcək pandemiyalara qarşı şəhərlərin hazırlıqlı olması, şəhərlərin transformasiyası zamanı yerli mədəniyyətin qorunub saxlanılması mövzularını dərindən araşdırdı.

Nəhayət, 2024-cü ildə Qahirədə keçirilən 12-ci sessiya urbanizasiyanın artıq geri dönməz bir meqa-trend olduğunu və hər şeyin yerli səviyyədə başladığını bəyan etdi. Qahirə Bəyannaməsi bir daha xatırlatdı ki, dünyada 3 milyarda yaxın insan mənzil çatışmazlığından əziyyət çəkir və bu problemi həll etmədən dayanıqlı inkişafdan danışmaq mümkün deyil. Qahirə sessiyası həm də münaqişələrin şəhərləri necə dağıtdığını və yerindən edilmiş insanların şəhər sistemlərinə inteqrasiyasının vacibliyini gündəmə gətirdi. Münaqişə zonalarında şəhərlərin həm sığınacaq, həm də bərpa mərkəzi kimi rolu forumun ən ağrılı, lakin vacib mövzularından birinə çevrildi.

İndi isə dünyanın diqqəti Bakıya yönəlib. Azərbaycanın paytaxtı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına evsahibliyi etməyə hazırlaşır. Bu, həm ölkəmiz üçün, həm də bütün region üçün tarixi bir hadisədir. Bakı sessiyasının mövzusu "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və davamlı şəhərlər və icmalar" adlanır. Bu mövzu hazırda qlobal gündəmin ən yaralı yeridir. 1,1 milyard insanın şəraitsiz evlərdə yaşadığı, 300 milyondan çox insanın evsiz qaldığı bir dövrdə Bakı forumu bu böhranı həll etmək üçün qlobal bir yol xəritəsi təqdim etməyə hazırlaşır. Bakıdakı altı əsas dialoq sessiyasında mənzilin sadəcə bir iqtisadi faktor deyil, təməl insan hüququ kimi necə qorunmalı olduğu və yerli idarəetmə səviyyəsində bu hüququn necə təmin ediləcəyi detallı şəkildə müzakirə olunacaq. Həmçinin torpaq mülkiyyəti təhlükəsizliyi, iqlimə uyğunlaşma və inklüziv idarəetmə mənzil siyasətinin mərkəzinə gətiriləcək.

Bakı sessiyası həm də forumun tarixinə ən böyük iştirakçı saylarından biri ilə düşməyə namizəddir. Artıq 180 ölkədən 32 mindən çox iştirakçının qeydiyyatdan keçməsi bu tədbirə olan marağın göstəricisidir. Bu, Nayrobidəki ilk forumla müqayisədə iştirakçı sayının təxminən 27 dəfə artması deməkdir ki, bu da şəhərsalma məsələlərinin bəşəriyyət üçün nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyinin göstəricisidir. Bakı həm də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında bilik transferi üçün mühüm mərkəz olacaq. Bakı forumunun iştirakçıları həm Şərq və Qərbin qovuşduğu unikal memarlıq nümunələrini, həm də müasir şəhər transformasiyasının canlı nümunəsini görəcəklər. Burada mənzilin insan hüququ olduğu, iqlim dəyişikliyinə qarşı şəhərlərin necə müqavimət göstərə biləcəyi və rəqəmsal texnologiyaların şəhər idarəçiliyinə necə inteqrasiya ediləcəyi müzakirə olunacaq. Xüsusilə, "Gələcək nəsillər üçün şəhərlər" və rəqəmsal texnologiyaların Dayanıqlı İnkişaf Məqsədlərinə çatmadakı rolu Bakı dialoqlarının mərkəzində dayanacaq. Bakının zəngin mədəni irsi ilə innovativ inkişafının vəhdəti iştirakçılar üçün əyani bir vəsait olacaq.

Bakı sessiyası 2026-cı ildə BMT Baş katibinin hesabatına mühüm töhfə verəcək bir mərhələ olacaq. Beləliklə, qədim tarixlə müasirliyin vəhdət təşkil etdiyi Bakı bütün dünya üçün daha ədalətli, daha təhlükəsiz və daha yaşanılan şəhərlər qurmaq üçün qlobal bir dialoq platformasına çevriləcək. Bakıdan dünyaya veriləcək mesajlar bəşəriyyətin urbanizasiya yolundakı yeni istinad mənbələri olacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

**"Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı..."**

**Prezident İlham Əliyevin cari il mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə səsləndirdiyi bu fikirlər, əslində, Cənubi Qafqazın bugünkü siyasi mənzərəsinin ən dəqiq və qətiyyətli xülasəsidir.**

**Məhz ölkəmizin keçdiyi tarixi yol, xüsusilə son illərdə qazanılan hərbi-siyasi qələbələr sübut edir ki, bölgədə davamlı sülh kənardan gələn diktələrlə deyil, məhz Azərbaycanın iradəsi və gücü ilə formalaşıb. Bu güc faktoru Cənubi Qafqazı kənar müdaxilələrin poliqonundan çıxararaq, onu Azərbaycanın liderliyi ilə yeni bir inkişaf mərhələsinə daşıyıb.**



# Azərbaycanın başlatdığı sülh prosesi

## Bu, bütün region üçün yüksək rifah və güclü əməkdaşlıq deməkdir

### 200 illik status-kvonun sonu

Ötən müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət ərazilərimizin işğaldan qurtulmasını təmin etdi. Eyni zamanda Cənubi Qafqazda son 200 ildə hökm sürən, ədalətsizliyə əsaslanan status-kvonun üstündən xətt çəkilməsi ilə nəticələndi. Ulu Öndər Heydər Əliyevə qarşı sovet dövründə başlayan təqiblərdən istifadə edərək yaradılan Qarabağ hərəkatı və onun arxasında duran şovinist qüvvələr, köçəryanlar, sarkisyanlar kimi cinayətkar ünsürlər tarix səhnəsindən silindilər. Məhz 2020-ci ilin Zəfəri və 2023-cü ilin antiterror tədbirləri ilə Azərbaycan separatizmin kitabını bağladı, "boz zona"ları ləğv etdi. Bu, regionun nəfəs alması üçün atılmış ən böyük addım idi. Azərbaycanın tarixi qələbəsinin miqyası hələ də cəmiyyətimiz və dünya tərəfindən tam dərindən dərk olunma mərhələsindədir.

Prezident İlham Əliyevin Zəngilanda ilk yaşayış kompleksinə köçən sakinlərlə görüşü zamanı verdiyi mesajlar bir daha Azərbaycanın qətiyyətli siyasətini ortaya qoyur: "Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər".

Bütün bunlar da təsdiq edir ki, bölgədə sülhün bərqərar olması kənar güclərin deyil, məhz Azərbaycanın hərbi və diplomatik rəşadətinin nəticəsidir.

Bu gün Azərbaycan və Ermənistan arasında birbaşa dialoq kanalları işləyir. Ötən ilin avqustunda Vaşinqtonda sülh sammitində əldə olunan tarixi nailiyyətlər, iki ölkə arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişinin mətninin paraflanması həm də onu göstərir ki, kənar vasitəçilərə ehtiyac yoxdur.

### Şou xarakterli missiyalar

Sülh prosesinin Cənubi Qafqazın daxili iradəsi ilə irəlilədiyi bir vaxtda, kənar güclərin bölgəyə müdaxilə cəhdləri yalnız gərginliyi artırır. Bu mənada Ermənistandakı Avropa İttifaqı missiyası bu gün "səlibçi təfəkkürün" və neokolonial siyasətin davamı kimi çıxış edir.

Aydın görünür ki, bu missiyanın əsas dəstəkləyicisi olan Fransa, regionda sülhə töhfə vermək deyil, Ermənistan vasitəsilə öz hərbi-siyasi maraqlarını təmin etmək niyyətindədir. Faktiki olaraq bölgədə hərbi vəziyyət olmadığı halda avropalı "müşahidəçi"lərin sərhəddə peyda olması sadəcə imitasiyadır.

Xatırladaq ki, Avropa İttifaqının Ermənistandakı missiyası Aİ Şurasının 2023-cü il 20 fevral tarixli qərarı ilə fəaliyyətə başlayıb. 2025-ci ilin yanvarında Aİ Şurası missiyanın mandatını 2027-ci il fevralın 19-na qədər uzatmaq barədə qərar qəbul edib. Bu il aprelin 21-də isə Aİ ölkələrinin səfirləri Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərar qəbul ediblər.

Avropa İttifaqının regionda bu addımları sülhə töhfə vermir, əksinə, gərginliyi artırır və normallaşmanın irəliləməsinə mane olur.

Prezident İlham Əliyev çıxışında məhz bu məqama xüsusi vurğu edib: "...Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi. Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq".

Aİ-nin ikilistandartlı davranışları təbii ki, Azərbaycanla əməkdaşlığa kölgə salır. İşğala məruz qalan Ermənistan yox, Azərbaycan olub. Ancaq Aİ sərhədə qüvvələr göndərməklə, sanki Ermənistana təhdid var görüntüsü yaratmağa çalışır. Reallıqda isə məhz Azərbaycanın sülh liderliyi sayəsində Ermənistan özünü saldığı dalan vəziyyətindən qurtulub. Bu gün Azərbaycan üzərindən Ermənistana taxıl, gübrə gedir. Ölkəmizin neft məhsulları bura ixrac olunur. Bütün bunlar da bir daha Aİ missiyasının saxta şou yaratmaq vəzifəsi güddüyünü ortaya qoyur.

Bakı sülh prosesinə sadiqdir. Ötən il Əbu-Dabidə və Vaşinqtonda keçirilən görüşlər, paraflanmış sülh sazişi bu sadiqliyin təsdiqidir. Yeri gəlmişkən bildirək ki, paraflanmış sülh sazişinin VII maddəsində də deyilir ki, tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Buna görə də Aİ missiyasının fəaliyyətini dayandırması zəruridir.

Bununla belə, Azərbaycan hər zaman ayıq-sayıqdır. Ermənistanın siyasi müstəvisində nifrətlə yaşayan revanşist dairələr hakimiyyətə can atarsa və ölkəmizə qarşı yeni təxribatlar törədilərsə, Azərbaycanın cavabı 2020-ci ildə olduğu kimi, sarsıdıcı olacaq.

Prezident İlham Əliyevin Zəngilandan bəyan etdiyi kimi: "Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Ərazi bütövlüyünü və suverenliyini hərbi güclə təmin edən Azərbaycan bu gün danışıq masasında qətiyyətli və ləyaqətli siyasət yürüdür. Sözü ilə əməli arasındakı birlik ölkəmizin beynəlxalq nüfuzunu birə-on artırıb. İndi Azərbaycan təkcə enerji və nəqliyyat qovşağı deyil, həm də Cənubi Qafqazın taleyini müəyyən edən, sülhü qoruyan və diktə edən tərəf kimi dünyada adından söz etdirir.

Bir sözlə, Fransanın qərəzli ssenarisi əsasında formalaşdırılmış Aİ missiyası kimi kənar qüvvələr bu bölgədən nə qədər uzaq dursalar, Cənubi Qafqaz bir o qədər rahat nəfəs alacaq və dayanıqlı sülhə daha tez nail olunacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ölkəmizin diktə etdiyi geosiyasi reallıqlar

Prezident İlham Əliyevin Zəngilanda, ilk yaşayış kompleksinə köçən sakinlər qarşısındakı çıxışı konseptual əhəmiyyətinə görə əvvəlki dövrlərdən xeyli mənada fərqləndi və sülh quruculuğu prosesində Azərbaycanın həm regional, həm də qlobal müstəvidə yeni geosiyasi reallıqları diktə etdiyini bir daha təsdiqlədi. Xüsusilə Fransaya, Makron administrasiyasına və Ermənistanın "himayədar axtarışı" siyasətinə yönəlmiş kəskin və strateji mesajlar, əslində, həm də seçki ərəfəsindəki erməni cəmiyyətinin aydınlanması və yanlış meyillərə düşməməsi baxımından zəngin məzmunlu praqmatik xəbərdarlıq sayıla bilər.



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, xüsusən, Fransanın və adını çəkməsə də, Emmanuel Makronun son dövrlər Ermənistanda nümayiş etdirdiyi "xilaskar" obrazını sərt tənqid edən dövlətimizin başçısı açıq mətnlə Ermənistana səfər edib orada özlərini qəhrəman kimi göstərənlərin doğma ölkələrində dəstək reytinqlərinin 10-15 faiz arasında olmasını xatırlatmaqla, haqlı olaraq Makronun Fransadakı daxili siyasi zəifliyinə və xalqın etimadını itirdiyinə birbaşa işarə edərək əsl mənzərəni geniş ictimai-siyasi mühit üçün aydınlaşdırmış oldu: "Cənab İlham Əliyev işğala, təcavüzə son qoyduğumuz, Ermənistan və havadarları üzərində mütləq hərbi-siyasi qələbə qazandığımız Vətən müharibəsi zamanı da bu "qəhrəmanlar"ın hakimiyyətdə olduğunu, lakin İrəvana real kömək edə bilmədiklərini xüsusi vurğulamaqla göstərdi ki, himayəçi rolunda çıxış etmək istəyən hər kəsin, o cümlədən Makronun bəyanatları boş ritorikadan başqa bir şey deyil. Bu, əslində, sanki Ermənistanı Azərbaycanın əlindən "xilas ediblər" kimi bir görüntü yaratmaq istəyənlərin, o cümlədən Fransanın Cənubi Qafqazda manipulyativ və əsassız siyasətinin ifşası idi. Məlumdur ki, Ermənistanın xarici siyasəti uzun illərdir ki, "müstəqil subyekt" olmaqdan çox, bir alət olmaq üzərində qurulub. Təhlil göstərir ki, İrəvanın geosiyasi orbitini dəyişmək cəhdləri müstəqillik deyil, sadəcə "sahib dəyişikliyi"dir. Bu isə özlüyündə yaranan yeni geosiyasi konfiqurasiyada İrəvanın suverenlik yolunda geriyə addımı, yaxud ən yaxşı halda yerində saymasıdır".

Deputat qeyd edib ki, dünyada mövcud siyasi nizamın sarsıldığı, beynəlxalq təsisatların fəaliyyətsiz qaldığı çox mürəkkəb bir dönəmdə rəsmi Bakının hərbi-siyasi zəfərlərinə əsaslanan və regionda təhlükəsizliyə təminat verən yeni model formalaşdırması Azərbaycana öz müstəqil iradəsi ilə yeni reallıq diktə etməyə imkan verir. Uzun illər davam edən imitasiya xarakterli danışıqlar prosesini və beynəlxalq hüququn selektiv tətbiqini tarixin arxivinə göndərən Azərbaycan bu gün qlobal güclərin ikili standartlarına qarşı ən kəskin etiraz səsini ucaldan ölkədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji gedişlər, onilliklər boyu kağız üzərində qalan BMT qətnamələrinin hərbi-siyasi yolla icrasının təmin edilməsi və 44 günlük müharibənin siyasi nəticələri təkcə ərazi bütövlüyünün bərpası deyil, həm də neokolonialist ambisiyalar güdən xarici dairələrin, xüsusilə Fransanın Cənubi Qafqazdakı təsir rıçaqlarının qırılmasına əsaslanan arxitektura formalaşdırdı. Nəticə etibarilə indi Bakıdan gələn qətiyyətli mesajlar bölgədə kənar müdaxilələrə yer olmadığını və sülhün yalnız yerli reallıqlar üzərində qurula biləcəyini təsdiqləyir. Eyni zamanda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli bərpa işləri Azərbaycanın iqtisadi qüdrətinin və gələcək vizyonunun bariz nümunəsi kimi həm də önəmli güc göstəricisinə çevrilib. "Vandalizmə məruz qalmış torpaqların yenidən canlandırılması və Böyük qayıdış proqramının icrası dövlət-vətəndaş münasibətlərini yeni mərhələyə qaldırıb, dövlət başçısının xalqla birbaşa və səmimi təması isə bu birliyi daha da sarsılmaz edir. Bir sözlə, görünən odur ki, Yaxın Şərqdə gərginliyin artdığı, enerji və ərzaq təhlükəsizliyinin təhdid altında olduğu bir vaxtda cənab İlham Əliyevin rəhbərliyi altında sərgilədiyi balanslı və uzaqgörən siyasət ölkəni "təhlükəsizlik adasına" çevirib. Təbii ki, bu situasiyaya nail olmaqla ölkəmiz təşəbbüslərə qoşulan yaxud ideyaları dəstəkləyən subyektdən təşəbbüskar güc sahibinə çevrilib. Onilliklər boyu Rusiyanın hərbi-siyasi çətiri altında yaşaması ilə dövlətçilik institutlarını zəiflətmiş Ermənistanın bu reallıqları görüb faydalanmaması, üstəlik, rəsmi Moskva ilə münasibətləri gərginləşdirərək Fransanın "neo-müstəmləkəçi" siyasətinin qurbanına çevrilməsi Qafqaz üçün tam yeni təhlükəsizlik arxitekturası ortaya qoyan Bakıda təəssüflə qarşılanmaya bilməz", - deyə deputat əlavə edib.

B.Məhərrəmov vurğulayıb ki, Fransa üçün Ermənistanın taleyi yox, bu ölkə vasitəsilə regiona girmək və öz geosiyasi ambisiyalarını reallaşdırmaq önəmlidir. Ermənistan rəhbərliyi isə bunu "təhlükəsizlik zəmanəti" kimi qəbul edir, yaxud ən azı özlərini və xalqı buna inandırmağa çalışırlar ki, bu da növbəti strateji səhvdir. Qərbin, xüsusən Avropa strukturlarının isə situasiyadan sui-istifadə etdikləri, mümkün qədər yeni təsir rıçaqları əldə etmək üçün Ermənistanda daha da möhkəmlənməyə çalışmaları verilən bəyanatlardan, qəbul olunan qətnamələrdən aydın görünür. Prezident İlham Əliyevin mayın 10-da Zəngilan sakinləri ilə görüşündə çıxışı zamanı da ən diqqətçəkən məqamlardan biri məhz bu məzmuna - faktiki olaraq Fransanın patronajlığı altında olan Avropa İttifaqının müşahidə missiyası ilə bağlı idi. Təbii ki, hərbiləşmiş Avropa İttifaqı missiyasının olması Azərbaycanı təhdid edə bilməz. Prezident açıq şəkildə bildirdi ki, əgər Azərbaycan tərəfi bircə atəş açsa, o "müşahidəçi"lər qaçıb gedəcəklər və izləri də qalmayacaq. Bu, Ermənistana və onun havadarlarına verilən ciddi xəbərdarlıq idi: Azərbaycanın gücü və iradəsi qarşısında heç bir xarici "qalxan" tab gətirə bilməz. Əksinə, avromissiya əlavə gərginliklərin mənbəyi kimi çıxış etməklə de-fakto sülh şəraiti, dolayısı ilə Ermənistanın təhlükəsizliyi üçün buxova və təhdidə çevrilməkdədir.

Deputat bildirib ki, İrəvan yenə uğursuz oyunçu qismində şahmat masasında var-gəl etmək niyyətinə düşüb və aydındır ki, Ermənistan xalqına aşılanan "Fransa bizi qoruyacaq" mifi, əslində, revanşist hissləri alovlandırmaq və sülh prosesini ləngitmək məqsədi daşıyır: "Bakıdan dəfələrlə İrəvana süni ajiotaj yaratmağın fayda verməyəcəyinə dair mesajlar ötürülüb. Cənab İlham Əliyev Zəngilanda bir daha vurğuladı ki, Azərbaycanın heç kimin torpağında gözü yoxdur və Ermənistanın dövlətçiliyini məhv etmək niyyətində deyil. "Bizə Ermənistandan qorunmaq üçün heç kim lazım deyil. Biz nail olmaq istədiyimiz hər şeyə nail olmuşuq". Real durum, proseslərin xronoloji və məntiqi ardıcıllığı, o cümlədən cari təhlükəsizlik arxitekturası və qüvvələr balansı fonunda təhlil etsək, bu mesajın yalnız bir mənası var: Azərbaycan artıq regionun şəksiz lideridir. BMT Təhlükəsizlik Şurasının Fransa, Rusiya, ABŞ-nin timsalında daimi üzvlərinin 30 il ərzində həll edə bilmədiyi və ya etmək istəmədiyi problemi Azərbaycan təkbaşına həll edib. Nəticə etibarı ilə geosiyasi diaqnoz formatında yanaşsaq, cənab İlham Əliyevin Zəngilandakı çıxışı bir növ "Geosiyasi Müstəqillik Bəyannaməsi" idi. Azərbaycan Prezidentinin də bu qəbildən mesajı qəti idi: Ermənistan rəhbərliyi və xalqı nifrətdən və başqalarına sığınmaqdan əl çəkməlidir, yoxsa bu "sığınacaq" siyasəti onları daha böyük fəlakətlərə sürükləyəcək. Lakin təhlillər göstərir ki, əvvəllər ümidini Moskvaya bağlayan Ermənistan hələ də öz taleyini başqa paytaxtlarda - indiki halda Paris və Brüsseldə axtarır, bu isə onun müstəqilliyini daha da zəiflədir. Bu situasiyadan istifadə etmək istəyən Makron iqtidarı isə daxili böhranını gizlətmək üçün Cənubi Qafqazda "süni qəhrəmanlıq" edir, lakin ötən dövrün təcrübəsi göstərir ki, onun bu cəhdləri Bakının qətiyyəti qarşısında heç bir real hərbi-siyasi çəkiyə malik deyil. Azərbaycan isə xarici təzyiqlərə rəğmən, enerji və logistika strategiyası, Zəngəzur dəhlizi, Böyük qayıdış qismində öz gündəliyinin icrasını uğurla davam etdirir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Cənubi Qafqazda geosiyasi maraqlar, ikili standartlar, Azərbaycanın strateji xətti

Müasir dünyanın siyasi mənzərəsinə nəzər saldıqda aydın görünür ki, bu gün qlobal təhlükəsizlik arxitekturasının ən çox ehtiyac duyduğu əsas dəyər sabitlik, qarşılıqlı etimad və sülhdür. Lakin beynəlxalq münasibətlər sistemində sülh anlayışı hər zaman humanitar məna daşımır.

Bəzən "sülh təşəbbüsü", "vasitəçilik", "müşahidə missiyası", "demokratik institutlar" kimi təqdim olunan platformalar böyük güclərin regional təsir uğrunda mübarizəsinin siyasi alətinə çevrilir. Xüsusən də strateji coğrafi mövqeyi, enerji resursları və nəqliyyat imkanları ilə seçilən Cənubi Qafqaz bu geosiyasi rəqabətin ən həssas məkanlarından biri olaraq qalır.

Son illər bölgədə baş verən hadisələr göstərir ki, xüsusilə Rusiyanın regiona təsir imkanlarının zəifləməsi fonunda yeni güc mərkəzləri Cənubi Qafqaza daxil olmaq, burada siyasi və institusional mövqelərini möhkəmləndirmək üçün müxtəlif mexanizmlərdən istifadə etməyə cəhd edirlər. Bu kontekstdə Fransa Prezidenti Emmanuel Makron tərəfindən nümayiş olunan siyasi avantüra diqqətdən yayınmır. Bütün baş verən bu geosiyasi hadisələr fonunda dəyişməyən bir həqiqət var - regionda real sülh gündəliyinin müəllifi və təşəbbüskarı məhz Azərbaycandır.

2020-ci il sentyabrın 27-də baş vermiş İkinci Qarabağ müharibəsi regionun siyasi xəritəsini dəyişməklə yanaşı, beynəlxalq hüququn uzun illər kağız üzərində qalmış prinsiplərinin praktiki tətbiqinə imkan yaratdı. Azərbaycanın öz ərazi bütövlüyünü və suveren hüquqlarını təmin etməsindən sonra bölgədə yeni reallıqlar formalaşdı. Məhz bundan sonra sülh sazişi təşəbbüsü ilə çıxış edən ilk ölkə də Azərbaycan oldu.




Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan müharibə yox, dayanıqlı sülh istəyir. Dövlətimizin başçısının Zəngilanda sakinlərlə görüşündə verdiyi mesaj da bu siyasi fəlsəfənin davamı idi. Prezident aydın bildirmişdi ki, Azərbaycan regionda sülhün müəllifidir və bu siyasət təkcə regionun deyil, daha geniş coğrafiyanın təhlükəsizlik arxitekturasına xidmət edir.

Bu mövqe bir neçə gün öncə İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı zamanı bir daha beynəlxalq auditoriyaya çatdırıldı. Prezident İlham Əliyev videoformatda çıxışı zamanı bəzi Avropa institutlarının regionda sülh prosesinə destruktiv yanaşmasını gündəmə gətirərək bildirdi: "Bütün Avropa institutları Ermənistan-Azərbaycan sülh prosesinə Avropa Komissiyası kimi eyni yanaşmanı nümayiş etdirmir". Prezidentin sözlərinə görə, belə institutlardan biri Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasıdır: "Bu qurum sülh prosesini dəstəkləmək əvəzinə, əksinə, onu sabotaj etməklə məşğuldur". Xatırladaq ki, təkcə 2021-ci ilin mayından 2026-cı ilin aprel ayınadək Avropa Parlamenti Azərbaycanla bağlı 14 qətnamə qəbul edib və bu sənədlərdə qərəzli yanaşma, siyasi manipulyasiya və həqiqətlərin təhrif olunması açıq hiss olunub.

Burada diqqət çəkən əsas məqamlardan biri ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi, separatizmə son qoyması, beynəlxalq hüququn norma və prinsiplərini həyata keçirməsi bəzi siyasi dairələrdə narahatlıq doğurub. Halbuki ölkəmiz, əslində, BMT-nin Təhlükəsizlik Şurasının illərlə icra olunmayan qətnamələrinin reallaşdırılmasını təmin edib.

Digər tərəfdən, Fransa rəhbərliyinin son illər Ermənistanı dəstəkləməsi, onu silahlandırması və regionda birtərəfli siyasi xətt yürütməsi artıq heç kim üçün sirr deyil. Sözsüz ki, bu siyasət vasitəçilik prinsiplərinə deyil, Fransanın geosiyasi maraqlarına, regionda öz təsir dairəsini genişləndirmək arzusuna xidmət edir.

Bu çərçivədə Ermənistan-Azərbaycan sərhədində yerləşdirilmiş Avropa müşahidə missiyasının "fəaliyyəti" də haqlı olaraq rəsmi Bakının ciddi narazılığına səbəb olub. Azərbaycan dəfələrlə bəyan edib ki, regionda etimad mühiti yaratmaq istəyən istənilən təşəbbüs balanslı və obyektiv olmalıdır, çünki birtərəfli mövqe sülhə yox, yeni gərginliklərə xidmət edir.

Əslində, son proseslər göstərir ki, beynəlxalq platformalarda Azərbaycana qarşı həyata keçirilən informasiya kampaniyaları, siyasi təzyiq cəhdləri və müxtəlif qətnamələr Bakının strateji kursunu dəyişə bilməyib və bilməyəcək də. Əksinə, ölkəmiz daha prinsipial mövqe nümayiş etdirərək milli maraqlarını müdafiə etməkdə davam edir.

Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı zamanı verdiyi digər mühüm mesaj da bundan ibarət idi ki, Azərbaycan sülh gündəliyindən geri çəkilməyəcək. Dövlətimizin başçısı vurğulamışdır ki, regionda artıq yeni reallıqlar formalaşıb və bu reallıqları qəbul etməyən qüvvələr sonda siyasi məğlubiyyət yaşayacaqlar.

İndiki geosiyasi mənzərə bir daha təsdiq edir ki, Cənubi Qafqaza sülh xaricdən idxal edilmir, region dövlətlərinin siyasi iradəsi ilə qurulur. Bu iradəni nümayiş etdirən əsas aktor isə Azərbaycandır. Ölkəmiz 44 günlük müharibədən sonra revanşizm yox, barış modeli təklif etdi, qarşıdurma yox, kommunikasiyaların açılmasını gündəmə gətirdi, bloklaşma yox, regional əməkdaşlıq platformalarını təşviq etdi. Məhz buna görə bu gün cəsarətlə qeyd edə bilirik ki, Cənubi Qafqazda sülhün siyasi müəllifi də, strateji təminatçısı da, gələcək təhlükəsizlik modelinin əsas memarı da Azərbaycandır. Bu isə artıq təkcə siyasi bəyanat deyil, regional reallığın özüdür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




# İnkişaf ritmi və estetika

## Bunlar Bakının simasında vəhdət təşkil edir







Bakı yalnız Azərbaycanın deyil, bütövlükdə regionun ən dinamik inkişaf edən şəhərlərindən biridir.





Paytaxtda həyata keçirilən genişmiqyaslı abadlıq və yenidənqurma işləri, xidmətlərin müasirləşdirilməsi və şəhər estetikasına xüsusi diqqət göstərilməsi Bakının müasir urbanistika prinsiplərinə uyğun şəkildə inkişafını nümayiş etdirir. Bu proses xüsusilə son illərdə daha da sürətlənib. WUF13-də iştirak üçün gələn xarici qonaqlar da paytaxtın həm infrastruktur, həm də ekoloji və vizual baxımdan daha müasir, rahat və cəlbedici şəhər olduğunu görürlər.

Bakıda həyata keçirilən layihələr təkcə şəhərin inkişafına deyil, həm də insanların gündəlik həyat keyfiyyətinin yüksəldilməsinə hesablanıb. Xüsusən piyadayönümlü şəhər mühitinin formalaşdırılması istiqamətində görülən işlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müasir şəhərlərdə prioritet hesab olunan mikromobillik həllərinin tətbiqi, avtomobil sıxlığının azaldılması və piyadalar üçün təhlükəsiz, rahat məkanların yaradılması Bakıda da geniş vüsət alıb. Şəhərin mərkəzi hissələrində avtomobil yollarının mərhələli şəkildə piyada zonaları ilə əvəz olunması həm sakinlərin rahatlığına, həm də turistlərin şəhərlə daha yaxından tanış olmasına imkan yaradır.

Bu istiqamətdə son dövrlərdə həyata keçirilən ən mühüm layihələrdən biri Səbail və Yasamal rayonlarını əhatə edən İslam Səfərli küçəsinin yenidən qurulmasıdır. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə açılışı baş tutan layihə Bakının yeni urbanistik simasının formalaşdırılmasının mühüm nümunəsidir. Azərbaycan prospektindən başlayaraq Mirzəağa Əliyev küçəsinədək uzanan ərazi tam şəkildə yenidən qurulub, küçə boyunca abadlıq işləri aparılıb və piyadalar üçün rahat hərəkət imkanları yaradılıb. Layihə çərçivəsində Nigar Rəfibəyli küçəsinin bir hissəsi də yenilənib, Mərkəzi Park istiqamətində rahat keçid təmin olunub. Abadlaşdırılan küçələrin ümumi uzunluğu 1350 metrdir. Yenidənqurma işləri yalnız yol örtüyünün dəyişdirilməsi ilə məhdudlaşmayıb. Küçə boyunca su və kanalizasiya xətləri tamamilə yenilənib, qaz xətləri yeraltı sistemlə əvəz edilib. Ərazidə yerləşən yaşayış və qeyri-yaşayış obyektlərinin fasadlarında təmir və bərpa işləri aparılıb, yaşıllıq zolaqları salınıb, yeni oturacaqlar və işıqlandırma sistemləri quraşdırılıb. Nəticədə şəhərin bu hissəsi həm yerli sakinlər, həm də turistlər üçün müasir ictimai məkana çevrilib.

Layihənin ən mühüm üstünlüklərindən biri Fəvvarələr meydanından Qış parkına qədər fasiləsiz piyada hərəkəti üçün yeni marşrutun yaradılmasıdır. Tarixi memarlıq nümunələrinin yerləşdiyi bu ərazi həm turistik baxımdan daha cəlbedici görünür, həm də şəhərin mədəni atmosferini aydın nümayiş etdirir. Piyada axınının artması burada fəaliyyət göstərən mağaza, restoran və kafelərin işinə də müsbət təsir göstərir, kiçik sahibkarlığın inkişafına yeni imkanlar açır. Paytaxtda aparılan abadlıq və quruculuq işləri yalnız şəhər mərkəzi ilə məhdudlaşmır. Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) tərəfindən müxtəlif rayon və qəsəbələrdə də genişmiqyaslı layihələr həyata keçirilir. Suraxanı rayonunda aparılan işlər bunun bariz nümunəsidir. Rayonun bütün qəsəbələrində küçələrin estetik görünüşünün yaxşılaşdırılması, piyada səkilərinin yenilənməsi, binaların fasadlarının rənglənməsi və işıqlandırma sistemlərinin müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Qaraçuxur qəsəbəsində yolkənarı obyektlərin fasadları yenidən qurulub, şəhərin ümumi görünüşünə uyğun olmayan reklam lövhələri sökülüb, ətraf mühitin estetikası yaxşılaşdırılıb. Hövsan qəsəbəsində də irihəcmli abadlıq işləri həyata keçirilir. Uzunluğu 1,8 kilometr olan küçələr boyunca yeni yaşıllıq zolaqları yaradılır, səkilər təmir edilir, işıqlandırma sistemi yenilənir. Bu layihələr şəhərin yalnız mərkəzi hissəsinin deyil, bütün yaşayış məntəqələrinin müasir standartlara uyğun inkişaf etdirilməsi istiqamətində görülən sistemli işlərin tərkib hissəsidir.

Bakının inkişaf konsepsiyasında ekoloji tarazlığın qorunması və yaşıllıqların artırılması xüsusi yer tutur. Son illərdə paytaxtda minlərlə yeni ağac və kol əkilib, park və bağlarda geniş yaşıllaşdırma tədbirləri həyata keçirilib. 2026-cı ilin ilk rübündə şəhər ərazisində 2744 ağac, 5178 kol və 136 mindən artıq gül əkilməsi bu istiqamətdə görülən işlərin miqyasını aydın göstərir. Həmçinin minlərlə kvadratmetr sahədə yeni qazon örtüyü salınıb. Bu cür təşəbbüslər yalnız şəhərin vizual görünüşünü yaxşılaşdırmır, eyni zamanda ekoloji mühitin sağlamlaşdırılmasına və iqlim dəyişikliklərinin təsirlərinin azaldılmasına xidmət edir.

Paytaxtda sanitar təmizlik və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi də xüsusi diqqət mərkəzində saxlanılır. Son dövrlərdə yağan intensiv yağışlardan sonra Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən keçirilən genişmiqyaslı təmizlik aksiyaları şəhərin sanitariya vəziyyətinin qısa müddətdə bərpa olunmasına imkan verib. Şəhərin küçə və prospektləri mütəmadi olaraq xüsusi yuyucu vasitələrlə təmizlənir, park və istirahət məkanlarında oturacaqlar, işıq dirəkləri və məhəccərlər yuyulur, yaşıllıqlara aqrotexniki qulluq göstərilir. Eyni zamanda yolkənarı ağaclar yuyulur, zədələnmiş budaqlar götürülür və yeni güllər əkilir. İlin əvvəlindən keçirilən çoxsaylı iməciliklər paytaxtın təmizliyinə və estetik görünüşünə verilən önəmi nümayiş etdirir.

Paytaxtda piyadaların təhlükəsizliyinin təmin olunması məqsədilə də ardıcıl tədbirlər görülür. Son illərdə səkilərin genişləndirilməsi və yeni piyada zonalarının yaradılması istiqamətində mühüm addımlar atılıb. Bununla yanaşı, bəzi hallarda qanunsuz tikinti və ya digər müdaxilələr nəticəsində piyada səkilərinin zəbt olunması halları da müşahidə edilir. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən keçirilən monitorinqlər nəticəsində belə halların qarşısı operativ şəkildə alınır. Səkilər əvvəlki vəziyyətinə qaytarılır və piyadaların təhlükəsiz hərəkəti bərpa olunur. Bu yanaşma göstərir ki, şəhərsalma siyasətində piyadaların rahatlığı prioritet məsələ kimi qəbul edilir.

Bakının inkişafında kommunal xidmətlərin modernləşdirilməsi də mühüm yer tutur. Bu məqsədlə alınan yeni texnikalar tullantıların daha operativ daşınmasına, sanitariya-gigiyena vəziyyətinin yaxşılaşdırılmasına və kommunal xidmətlərin keyfiyyətinin artırılmasına imkan verəcək.

Layihənin diqqətçəkən tərəflərindən biri də alınan texnikaların yerli istehsal olmasıdır. Bu həm ölkənin sənaye potensialının inkişafını nümayiş etdirir, həm də idxaldan asılılığın azalmasına xidmət edir. Yeni texnikaların tətbiqi təmizlik işlərinin daha səmərəli təşkilinə şərait yaradır.

WUF13 çərçivəsində dünyanın müxtəlif ölkələrindən gələcək mütəxəssislər, şəhərsalma ekspertləri və turistlər Bakının son illərdə keçdiyi inkişaf yolunu yaxından müşahidə etmək imkanı qazanacaqlar. Müasir piyada zonaları, geniş yaşıllıq sahələri, təmiz və səliqəli küçələr, yenilənmiş kommunal infrastruktur və şəhərin qorunan tarixi siması Bakının həm qədim, həm də müasir şəhər kimi uğurlu sintezini nümayiş etdirəcək.

Bakıda aparılan abadlıq və yenidənqurma işləri təkcə cari dövr üçün deyil, gələcək onilliklər üçün hesablanmış uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Paytaxtın müasir dünya şəhərləri sırasında mövqeyinin möhkəmləndirilməsi, turist axınının artırılması və şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər Bakı üçün yeni inkişaf mərhələsinin əsasını formalaşdırır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Konstitusiya dövlətin siyasi, iqtisadi və sosial inkişafı üçün hüquqi baza yaradır

## Bu barədə Türkmənistan parlamentinin təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda danışılıb




Mayın 14-də Türkmənistan parlamentinin təşkilatçılığı ilə "Konstitusiya dövlətin inkişafının və sosial rifahın hüquqi təminatı kimi" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli konfransda iştirak edib.

Tədbirdə çıxış edən komitə sədri Türkmənistanı Konstitusiya Günü və Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan parlamentinin Sədri Sahibə Qafarovanın adından təbrik edib. Daha sonra Azərbaycan Respublikasının Konstitusiyası barədə məlumat verən Əli Hüseynli bildirib ki, 1995-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan bu tarixi sənəd müasir dövlətçiliyimizin təməl daşına çevrilib və dövlətimizin siyasi, iqtisadi və sosial inkişafı üçün hüquqi baza yaradıb. Diqqətə çatdırılıb ki, Azərbaycanda Konstitusiya demokratiyanın əsasını təşkil edir, siyasi və hüquqi sabitliyi təmin edir, insan hüquq və əsas azadlıqlarının qorunmasına zəmanət verir. Bununla belə, bu sənəd xalqın iradəsini əks etdirir və dövlət idarəçiliyinin, hüququn aliliyinin əsas prinsiplərini müəyyən edir.

Komitə sədri bildirib ki, Konstitusiyanın qəbul edilməsinin 30 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2025-ci ilin ölkəmizdə "Konstitusiya ili" elan olunması bu sahəyə verilən önəmin göstəricisidir.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qüvvəsi ölkəmizin bütün ərazisində tam şəkildə bərpa edilib. Eyni zamanda qeyd edilib ki, dövlət başçımız İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsini və regionda davamlı sabitliyin təmin olunmasını daim dəstəkləyir. Konfransda Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qanunvericilik sahəsində əməkdaşlığın əhəmiyyəti xüsusi qeyd olunub.

Sonra tədbirdə Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan parlament nümayəndələri çıxış ediblər.

Çıxışlarda Konstitusiyanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsində, hüquqi dövlət quruculuğunda və vətəndaşların rifahının təmin edilməsində oynadığı mühüm rol vurğulanıb. Həmçinin qeyd olunub ki, güclü hüquqi baza dövlət idarəçiliyinin səmərəli təşkili, demokratik institutların inkişafı və ictimai sabitliyin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

*"Azərbaycan"*

# Ölkə miqyasında həyata keçirilən WUF13 Festivalı başa çatıb

17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ərəfəsində ölkə ictimaiyyətinin bu mötəbər beynəlxalq tədbir barədə məlumatlandırılması məqsədilə Azərbaycanın müxtəlif şəhərlərində WUF13 Festivalı təşkil olunub.

Festival Quba, Lənkəran, Qəbələ, Şəki, Mingəçevir, Gəncə, Xankəndi və Sumqayıt şəhərlərində keçirilib və Bakıda yekun tədbirlə başa çatıb. WUF13 Festivalı ümumilikdə 9 şəhərdə 115 mindən çox insanı bir araya gətirib. Festival proqramı iki əsas hissədən ibarət olub.




Günün birinci yarısında tədbirin keçirildiyi şəhərlərdə fəaliyyət göstərən ali təhsil müəssisələrində WUF13 mövzusunda məlumatlandırma sessiyaları təşkil edilib. Sessiyalar çərçivəsində forumun məqsədləri, dayanıqlı şəhərsalma prinsipləri və Azərbaycanın urbanizasiya sahəsində prioritetləri barədə iştirakçılara ətraflı məlumat verilib.

Günün ikinci yarısında isə açıq havada ictimai proqramlar həyata keçirilib. Axşam proqramları çərçivəsində interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr təşkil olunub. Tədbirlərdə dayanıqlı şəhər inkişafı, inklüziv şəhər mühiti, innovativ urban həllər və gələcəyin şəhərləri kimi aktual mövzular geniş auditoriyaya təqdim edilib.

Festival iştirakçıları həmçinin WUF13-ün əsas ideyaları və beynəlxalq əhəmiyyəti ilə yaxından tanış olmaq imkanı əldə ediblər. Müxtəlif yaş qruplarını əhatə edən tədbirlər iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və şəhər sakinlərinə gələcəyin yaşayış məkanları ilə bağlı yeni baxış bucağı qazandırıb.

WUF13 şəhər festivalları ölkə üzrə geniş ictimai iştirakçılığı təmin etməklə yanaşı, dayanıqlı və inklüziv şəhərlərin formalaşdırılması istiqamətində maarifləndirmənin gücləndirilməsinə mühüm töhfə verib.

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

# Regionda yeni təhlükəsizlik arxitekturasını Azərbaycan formalaşdırır

Prezident İlham Əliyevin Zəngilanda səsləndirdiyi fikirlər regionda yaranmış yeni geosiyasi reallıqların açıq ifadəsidir. Dövlət başçısının da vurğuladığı kimi, bu gün Cənubi Qafqazda sülhün əsas müəllifi Azərbaycandır. Xarici dairələrin, xüsusilə Fransanın Ermənistan üzərindən bölgəyə müdaxilə cəhdləri isə nəticəsiz qalmağa məhkumdur.



Milli Məclisin deputatı Sevinc Hüseynova qəzetimizə açıqlamasında deyib ki, Ermənistanın uzun illər təhlükəsizlik və siyasi dayağını Rusiyada axtarması, indi isə eyni yanaşmanı Fransa üzərindən davam etdirməyə çalışması rəsmi İrəvanın hələ də müstəqil və balanslı siyasət yürüdə bilmədiyini göstərir. Ermənistanın əsas problemi milli maraqlara söykənən regional siyasət formalaşdırmaq əvəzinə daim hansısa xarici gücün himayəsinə arxalanmağa çalışmasıdır. Tarix isə sübut edib ki, kənar güclərin geosiyasi maraqlarının alətinə çevrilən dövlətlər uzunmüddətli təhlükəsizlik və sabitlik əldə edə bilmirlər. "Prezident İlham Əliyevin "Biz istəməsəydik, sülh olmayacaqdı" fikri Azərbaycanın bölgədə formalaşdırdığı güc balansını və siyasi iradəsini bir daha nümayiş etdirdi. Dövlət başçısı həmçinin vurğuladı ki, Azərbaycan öz taleyinin sahibidir və heç bir xarici qüvvə bizim iradəmizə təsir göstərə bilməz.

Deputat xatırladıb ki, Emmanuel Makron administrasiyasının, ümumilikdə Fransanın son dövrlərdə nümayiş etdirdiyi yanaşmaların regionda sülh və etimad mühitinə mənfi təsir göstərdiyi Azərbaycan tərəfindən bir daha diqqətə çatdırılıb: "Prezident İlham Əliyev Fransanın Ermənistanı silahlandırmasına münasibət bildirərək qeyd edib ki, Ermənistanın silahlandırılması sülhə xidmət etmir, yeni risklər yaradır. Dövlət başçısı bir daha bəyan edib ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam təmin edib və bundan sonra da milli maraqlarını qətiyyətlə müdafiə edəcək. Ermənistanın revanşist dairələrin təsiri altında yenidən təxribat yolunu seçməsi isə ilk növbədə elə İrəvanın özü üçün ağır nəticələr doğura bilər. Bu gün regionda təhlükəsizlik və əməkdaşlığın əsas təminatçısı Azərbaycan-Türkiyə birliyidir. Şuşa Bəyannaməsinin yaratdığı yeni siyasi reallıq fonunda kənar güclərin neoimperialist ambisiyaları artıq əvvəlki kimi nəticə vermir".

S.Hüseynova sonda qeyd edib ki, Zəngilanda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri fonunda verilən mesajlar Azərbaycanın postmünaqişə dövründə regionda yeni inkişaf və təhlükəsizlik arxitekturasını formalaşdırdığını göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# WUF13 çərçivəsində Yeni Şəhərsalma Proqramının gedişatı ilə bağlı nazirlər səviyyəsində görüş keçiriləcək

Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) ilk günündə WUF13-də yeni təşəbbüs kimi Yeni Şəhərsalma Proqramı ilə əlaqədar nazirlər səviyyəsində görüş təşkil olunacaq. Yeni Şəhərsalma Proqramının 20 illik icra müddətinin orta mərhələsinə təsadüf edən bu görüş əldə olunan irəliləyişləri qiymətləndirmək, mövcud problemləri müəyyən etmək və növbəti icra mərhələsini formalaşdırmaq üçün fürsət təqdim edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın sədrliyi ilə mayın 17-də keçiriləcək həmin görüşdə hökumət nümayəndələri bir araya gələrək Yeni Şəhərsalma Proqramının icrasını nəzərdən keçirəcək və 2036-cı ilə qədər olan növbəti mərhələ üçün prioritetləri müzakirə edəcəklər. WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: Təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna uyğun olaraq, bu müzakirələrdə inklüzivliyə, davamlılığa və dayanıqlı şəhər inkişafına təkan verən əsas faktor kimi mənzil təminatı məsələsinə xüsusi diqqət yetiriləcək.

**Qlobal qiymətləndirmə və yeni siyasi impuls**

Nazirlər görüşü ölkələrə təcrübə mübadiləsi aparmaq, mövcud boşluqları müəyyənləşdirmək və Yeni Şəhərsalma Proqramı üzrə öhdəlikləri möhkəmləndirmək üçün platforma təqdim edəcək. Eyni zamanda həmin görüş 2026-cı ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasında keçiriləcək yüksəksəviyyəli icmal ərəfəsində siyasi dinamikanın artırılmasına da öz töhfəsini verəcək.

İştirakçılar mənzil təminatının üç əsas istiqamət - sosial inklüzivlik və yoxsulluğun azaldılması, iqtisadi rifah və imkanlar, eləcə də ekoloji dayanıqlılıq və iqlimə davamlılıq üzrə əsas təkanverici rolunu müzakirə edəcək və əldə olunmuş nəticələri, habelə milli yanaşmaları və növbəti mərhələ üçün prioritetləri nəzərdən keçirəcəklər.

**Yüksəksəviyyəli dialoq və tematik panellər**

Tədbir Azərbaycan Respublikasının hökuməti, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və BMT nümayəndələrinin iştirakı ilə təşkil olunacaq yüksəksəviyyəli dialoqla başlayacaq. Bunun ardınca nazirlər tərəfindən üzv dövlətlərin milli nailiyyətlərini və prioritet istiqamətlərini əks etdirən bəyanatlar səsləndiriləcək.

Günün ikinci yarısında aşağıdakı mövzular üzrə üç tematik panel keçiriləcək:

- Sosial inklüzivlik və yoxsulluğun aradan qaldırılması üçün mənzil təminatı;
- Urbanistik rifah və hər kəs üçün imkanlar naminə mənzil təminatı;
- Ekoloji cəhətdən dayanıqlı və iqlimədavamlı şəhərsalma üçün mənzil təminatı.

Bu sessiyalar mövzu üzrə həm praktiki yanaşmalar, həm də həll yolları ilə bölüşmək üçün hökumətləri, BMT qurumlarını, vətəndaş cəmiyyətini və yerli idarəetmə orqanlarını bir araya gətirəcək.

Görüş Sədrin Xülasəsi sənədinin qəbulu ilə başa çatacaq. Əsas tövsiyələri əks etdirməklə yanaşı, bu sənəd qlobal səviyyədə hesabatvermə proseslərinə, eləcə də WUF13-ün yekun sənədlərinə, o cümlədən Bakı Fəaliyyətə Çağırış sənədinə töhfə verəcək.

WUF13-ün əhatəli proqramının tərkib hissəsi kimi nazirlər görüşü dayanıqlı urbanizasiya üzrə işlərin gedişatını sürətləndirmək üçün dövlət siyasətini yerli səviyyədə icra ilə uyğunlaşdırmaqla tədbirin dialoq, tərəfdaşlıq və fəaliyyət üçün qlobal platforma rolunu gücləndirəcək.

# *Süni intellekt erası:* Azərbaycan üçün yeni inkişaf mərhələsi

**Dünyada texnoloji transformasiya artıq günün əsas reallığıdır. Xüsusilə süni intellekt həllərinin sürətli inkişafı dövlət idarəçiliyindən iqtisadiyyata, təhsildən səhiyyəyə qədər bütün sahələrdə yeni imkanlar formalaşdırır. Məhz bu səbəbdən bir çox ölkələr süni intellekt üzrə milli strategiyalarını qəbul edərək qlobal rəqabətdə üstün mövqe əldə etməyə çalışırlar.**

Azərbaycan da bu qlobal prosesin önündə irəliləyən dövlətlərdəndir. Xatırladaq ki, Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə ölkəmizdə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilib. Dövlət başçısının "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 27 fevral 2026-cı il tarixli sərəncamı əsasında isə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın təşkilində məqsəd ölkəmizdə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsindən ibarətdir.

Şuraya sədrliyin son onilliklərdə bir çox mühüm layihələrə rəhbərliyi ilə böyük uğurlara imza atmış Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həvalə olunması bu istiqamətin ölkəmiz üçün nə qədər mühüm əhəmiyyət daşıdığını göstərir.

### Əsas strateji hədəflər

Bu gün Azərbaycan hökuməti qarşısında duran əsas strareji hədəflərdən biri ölkəmizdə süni intellekt ekosisteminin formalaşdırılması, rəqəmsal transformasiyanın sürətləndirilməsi və innovativ iqtisadiyyatın inkişaf etdirilməsidir. Bu istiqamətdə atılan ardıcıl addımlar Azərbaycanın gələcək iqtisadi modelini müəyyən edən strateji prosesdir.

Son illər süni intellekt texnologiyalarının tətbiqi dünya iqtisadiyyatında ciddi dəyişikliklər yaradıb. Beynəlxalq araşdırmalara görə, 2030-cu ilə qədər süni intellekt qlobal ÜDM-ə əlavə 15,7 trilyon dollar töhfə verə bilər. Bu texnologiyalar biznes proseslərinin avtomatlaşdırılması, məhsuldarlığın artırılması və yeni xidmət modellərinin yaradılması baxımından mühüm üstünlüklər təqdim edir. Kanada, ABŞ, Çin, Yaponiya və Avropa İttifaqı kimi aparıcı güclərin süni intellekt strategiyalarına böyük investisiyalar ayırması da məhz bu reallıqdan qaynaqlanır.

Azərbaycan üçün süni intellekt texnoloji yenilikdən daha çox, milli rəqabət qabiliyyətinin artırılması vasitəsidir. Strategiyada dövlət idarəçiliyi, iqtisadiyyat, sosial sahə, müdafiə, təhlükəsizlik və təhsil kimi istiqamətlərdə süni intellektin tətbiqi prioritet kimi müəyyən edilir. Xüsusilə dövlət xidmətlərinin daha operativ və şəffaf göstərilməsi, qərarvermə proseslərinin optimallaşdırılması və vətəndaş məmnunluğunun artırılması baxımından bu texnologiyalar böyük imkanlar yaradır.

Bu sahədə həyata keçirilən ardıcıl fəaliyyətin ən mühüm istiqamətlərindən biri yüksəksəviyyəli hesablama infrastrukturunun qurulmasıdır. Məlumdur ki, süni intellektin effektiv işləməsi üçün böyük həcmdə məlumatların emalı və güclü hesablama resursları tələb olunur. Bu baxımdan "Hökumət buludu" infrastrukturu və ölkədə fəaliyyət göstərən müvafiq səviyyəli Data mərkəzi mühüm baza rolunu oynayır. Data mərkəzində və "bulud" texnologiyasına əsaslanan "bulud" xidmət modellərində dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və aparılması, elektron xidmətlərinin təşkili üçün texnoloji mühit təmin etməlidir. Fərman əsasında "Hökumət bulud" konsepsiyası təsdiq edilib. Bununla yanaşı, gələcəkdə beynəlxalq bulud xidmətləri provayderlərinin Azərbaycanda fəaliyyət göstərməsi istiqamətində də müəyyən addımlar atılır.

### Azərbaycan dilində düşünüb danışan süni intellekt

Azərbaycan dilində süni intellekt həllərinin hazırlanmasına xüsusi diqqət ayrılması da diqqətçəkən məqamlardandır. Milli dil bazasında işləyən texnologiyaların inkişafı rəqəmsal suverenlik və milli informasiya təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət daşıyır. Açıq mənbəli



süni intellekt kitabxanalarının yaradılması, məlumat bazalarının genişləndirilməsi və "Açıq məlumatlar" portalının inkişafı bu sahədə yeni imkanlar formalaşdıracaq.

Süni intellektin inkişafında əsas məsələlərdən biri insan kapitalıdır. Azərbaycanın Süni intellekt strategiyasında ali təhsil müəssisələrində yeni tədris proqramlarının yaradılması, data elmi və maşın öyrənməsi üzrə mütəxəssislərin hazırlanması, elmi tədqiqatların stimullaşdırılması nəzərdə tutulur. Bu, xüsusilə vacibdir, çünki qlobal əmək bazarında süni intellekt üzrə peşəkar kadrlara tələbat sürətlə artır. Dünya təcrübəsi göstərir ki, texnologiyanın inkişafında əsas üstünlük yalnız maliyyə resursları deyil, həm də yüksəkixtisaslı insan kapitalıdır.

Azərbaycan dövləti süni intellekt texnologiyalarını inkişaf etdirməklə yanaşı, süni intellektin yaratdığı riskləri də nəzərə alır. Dipfeyk (süni intellect vasitəsi ilə saxta şəkillər, səslər və videolar yaratmaq üçün istifadə edilən proses) texnologiyaları, dezinformasiya kampaniyaları, kibertəhlükələr və fərdi məlumatların təhlükəsizliyi müasir dövrün əsas çağırışları sırasında yer alır. Ona görə də süni intellektin etik prinsiplər çərçivəsində və məsuliyyətli tətbiqi xüsusi əhəmiyyət daşıyır. Dövlət məlumatların məxfiliyinin qorunmasına, şəffaf qərarvermə mexanizmlərinin yaradılmasına və hüquqi tənzimləmənin formalaşdırılmasına əsas prioritetlərdən biri kimi yanaşır.

Eyni zamanda yaxın illərdə ölkəmizdə dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi, startap ekosisteminin inkişaf etdirilməsi və innovativ sahibkarlığın təşviqi də əsas hədəflər sırasındadır. Süni intellekt sahəsində fəaliyyət göstərən şirkətlərə vergi güzəştləri və maliyyə dəstəyi mexanizmlərinin tətbiqi nəzərdə tutulur ki, bu da yeni texnoloji bizneslərin yaranmasına təkan verəcək.

### Strateji sərvət - data

Bu istiqamətdə görülən işlər ölkəmizin beynəlxalq rəqabət qabiliyyətinin artırılması, rəqəmsal iqtisadiyyatın inkişafı və innovasiya mühitinin gücləndirilməsi baxımından mühüm mərhələ ola bilər. Bütün bunlar göstərir ki, süni intellekt artıq bu günün inkişaf modelidir. Azərbaycan üçün əsas məsələ texnoloji transformasiyada passiv müşahidəçi deyil, aktiv iştirakçı olmaqdır. Hazırda dövlətimizin süni intellekt sahəsində gördüyü işlər məhz bu məqsədə xidmət edir.

Uzun illər boyu dünya iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi neft hesab olunurdu. Dövlətlərin gücü, şirkətlərin təsiri və qlobal siyasətin istiqaməti böyük ölçüdə enerji resursları ilə müəyyən edilirdi. Bu gün isə beynəlxalq ekspertlər getdikcə daha çox bir fikri səsləndirirlər: XXI əsrin əsas strateji resursu artıq neft yox, datadır. Bu fikir təsadüfən yaranmayıb. Çünki müasir dünyada iqtisadiyyatın, texnologiyanın, siyasətin və hətta təhlükəsizliyin əsasını məlumatlar təşkil edir. İnsanların internetdə davranışı, maliyyə əməliyyatları, sosial şəbəkələrdə fəaliyyəti, tibbi göstəriciləri, nəqliyyat axını, istehsal prosesləri - bütün bunlar milyardlarla məlumat vahidi yaradır. Süni intellektin sürətli inkişafı isə datanı, sadəcə, məlumat toplusundan çıxararaq strateji sərvətə çevirib.

Neft sənaye inqilabının əsas resursu idisə, data rəqəmsal inqilabın əsas yanacağıdır. Necə ki, ötən əsrdə neftə sahib olan dövlətlər qlobal iqtisadi və siyasi üstünlüklər əldə edirdilər, bu gün böyük data bazalarına və onları emal etmək imkanlarına malik ölkələr texnoloji liderliyə yüksəlirlər. Dünyanın ən böyük şirkətlərinə nəzər saldıqda bunu aydın görmək mümkündür. Bir zamanlar enerji nəhəngləri dünya bazarlarına hökm edirdisə, indi texnologiya şirkətləri - məlumatı toplayan, analiz edən və ondan iqtisadi dəyər yaradan platformalar qlobal iqtisadiyyatın əsas aktorlarına çevriliblər. Bu mənada, rəqəmsal məlumatlar, müasir dünya iqtisadiyyatı üçün yeni "xammal" rolunu oynayır. Lakin neftdən fərqli olaraq, məlumat tükənən resurs deyil. Əksinə, istifadə olunduqca artır və daha böyük iqtisadi dəyər yaradır. Məsələn, süni intellekt sistemləri nə qədər çox məlumatla işləyirsə, bir o qədər "ağıllı" və effektiv olur. Bu səbəbdən məlumat toplamaq və onu düzgün analiz etmək artıq dövlətlərin milli təhlükəsizlik məsələsinə çevrilib.

Azərbaycan üçün də data iqtisadiyyatına keçid strateji əhəmiyyət daşıyır. Neft və qaz resursları ölkənin iqtisadi inkişafında mühüm rol oynasa da, gələcəyin rəqabəti rəqəmsal texnologiyalar üzərində qurulacaq. Süni intellekt, bulud texnologiyaları, açıq məlumat bazaları və rəqəmsal dövlət xidmətləri bu keçidin əsas elementləridir. Bu gün ölkəmizdə süni intellekt sahəsində görülən işlər məhz yeni rəqəmsal iqtisadi modelə keçidin göstəriciləridir.

Ən vacib məsələlərdən biri isə məlumatı yalnız toplamaq deyil, onu dəyərə çevirmək bacarığıdır. XXI əsrin əsas üstünlüyü təbii sərvətlərin həcmi ilə deyil, məlumatı idarə və analiz etmək, onu texnologiyaya çevirmək qabiliyyəti ilə ölçüləcək. Bu mənada insan kapitalı, təhsil və texnoloji innovasiyalar hər zamankından daha vacib olacaq.

Dünya sürətlə dəyişir və yeni dövrün əsas sərvəti artıq serverlərdə, məlumat mərkəzlərində və rəqəmsal platformalarda formalaşır. Bu reallıq uzun illər ərzində neft-qaz ölkəsi kimi tanınmış Azərbaycan üçün də yeni imkanlar, misilsiz fürsətlər formalaşdırır. Ölkəmiz üçün bununla yeni bir inkişaf erası başlanır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xətai Rayon Prokurorluğunda "Açıq Qapı" günü təşkil olunub




Mayın 14-də Xətai Rayon Prokurorluğunun inzibati binasında "Açıq Qapı" günü təşkil olunub.

Tədbir başlamazdan əvvəl inzibati binada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstü önünə güllər düzülüb. Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Daha sonra keçirilən tədbirdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

"Açıq Qapı" gününün keçirilməsində əsas məqsəd vətəndaşların prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış olmalarını təmin etmək, hüquqi maarifləndirmə işini genişləndirmək, eləcə də prokurorluğun şəffaf fəaliyyətinin ictimaiyyətə təqdim olunması olub.

Tədbiri giriş sözü ilə açan Xətai rayon prokuroru Sərdar İmanov iştirakçıları salamlayaraq bu cür görüşlərin dövlət-vətəndaş münasibətlərinin möhkəmləndirilməsi, hüquqi biliklərin artırılması və ictimai etimadın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O, rayon prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, vətəndaş müraciətlərinə baxılması və insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışı zamanı prokurorluq orqanlarında son illərdə həyata keçirilən islahatlar, rəqəmsallaşma prosesi, "Elektron prokurorluq" informasiya sistemi və ictimaiyyətlə əlaqələrin inkişafı barədə danışıb. O, fəaliyyətin əsas prioritet istiqamətlərinin şəffaflıq, operativlik və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu diqqətə çatdırıb.

Tədbir çərçivəsində rayon prokurorluğunun əməkdaşları tərəfindən fəaliyyət sahələri üzrə iştirakçılara ətraflı məlumatlar verilib, onları maraqlandıran suallar cavablandırılıb.

İştirakçılar prokurorluğun inzibati binası ilə tanış olub, əməkdaşlar üçün yaradılmış iş şəraiti barədə məlumatlandırılıblar. Tədbir zamanı "Elektron prokurorluq" informasiya sistemi əyani şəkildə nümayiş etdirilib, müasir kriminalistik avadanlıqlar və onların istintaq prosesində tətbiqi barədə geniş məlumat verilib.

Sonda iştirakçılarla fikir mübadiləsi aparılıb və xatirə fotoşəkli çəkdirilib.

***"Azərbaycan"***

# Kürdə gursululuq nə qədər davam edəcək?

Çayların su rejiminin formalaşmasında iqlim faktoru mühüm rol oynayır. Quraqlıq dövrü çaylara, təsərrüflara necə mənfi təsir göstərirsə, bu hal atmosfer yağıntılarının artması nəticəsində çayların gursululuq mərhələsinə keçidində də müşahidə olunur. Həddindən artıq yağıntılar çaylarda suyun səviyyəsini artıraraq daşqınlara səbəb olur. Bu isə çay ətrafında yaşayan əhalinin həyat tərzinə, kənd təsərrüfatına ziyan vurur.



Son vaxtlar Azərbaycana düşən yağıntıların normadan artıq olması ölkəmizin əsas su mənbəyi olan Kür çayında suyun səviyyəsinin artmasına, nəticədə isə daşqınlara səbəb olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin proqnoz məlumatlarına əsasən, intensiv yağışlar səbəbindən Kür çayı üzərində yerləşən Şəmkir və Mingəçevir su anbarlarına may-iyun aylarında daha artıq su həcminin daxil olacağı nəzərə alınaraq, aidiyyəti qurumlarla razılaşdırılmaqla 13 aprel tarixindən Mingəçevir su anbarından Kür çayının aşağı axınına saniyədə 500 kubmetr, 17 aprel tarixindən isə 700 kubmetr suyun buraxılması qərara alınıb. Eyni vaxtda Kür çayına sağ və sol qollarından qoşulan Ağstafaçay, Qarqarçay, Türyançay, Ağsuçay, Göyçay və Girdmançay çayları vasitəsilə daxil olan su həcmləri də artıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına əsasən, yağıntı səbəbilə Kür çayı üzərində yerləşən nasos stansiyalarının işlədilməsinə ehtiyac olmayıb, nəticədə bir sıra rayonlarda lokal ərazilərdə çayın köməkçi bəndindən su sızmaları baş verib, mühafizə zonasında olan bir neçə yaşayış evlərinin həyətyanı sahələrinin və örüş torpaqlarının su basması faktları qeydə alınıb. Aidiyyəti qurumların təklifləri nəzərə alınaraq, Mingəçevir su anbarının iş rejiminə gündəlik nəzarət olunması və həftəlik rejimlər təsdiq olunmaqla Kür çayının aşağı axınına suyun buraxılması qərara alınıb. 24 aprel tarixindən Kür çayında suyun səviyyəsinin tədricən enməsi müşahidə olunub və ayrı-ayrı rayonların ərazisində 30-105 sm arasında dəyişdiyi müəyyən edilib. Hazırda Kür çayının məcrası ilə suyun maneəsiz Xəzər dənizinə axıdılması təmin edilir, subasma təhlükəsi səbəbindən yerli istismar idarələri tərəfindən bəzi ərazilərdə nasos aqreqatları, nasos və elektrik avadanlıqları quraşdırılır, su basmış ərazilərdən su tədricən kənarlaşdırılır və əhali gündəlik normal təsərrüfat fəaliyyətini davam etdirir.

### Çaylarda suyun səviyyəsi tədricən stabilləşir

Regional Su Meliorasiya Xidmətindən sorğumuza cavab olaraq bildirildi ki, son vaxtlar müşahidə olunan intensiv yağıntılar və yaz-yay gursululuq dövrü ilə əlaqədar olaraq transsərhəd və daxili çaylarda, o cümlədən Kür çayında suyun səviyyəsində artım qeydə alınmışdır. Bu hal mövsümi hidroloji proses olmaqla, nəzarət altında saxlanılır: "Kür çayı üzərində yerləşən Şəmkir, Yenikənd və Mingəçevir su anbarlarında su ehtiyatlarının tənzimlənməsi mövcud istismar qaydalarına uyğun həyata keçirilir. Mingəçevir su anbarından aşağı axına buraxılan sular aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə tənzimlənir və proses operativ nəzarətdədir".

2010-cu il daşqınlarından sonra Kür çayı boyunca mühafizə bəndlərinin möhkəmləndirilməsi və hündürləşdirilməsi istiqamətində mərhələli tədbirlər həyata keçirilib. Cari ildə də istismar proqramı çərçivəsində həmin işlərin davam etdirilməsi təmin olunur. Hazırda mühafizə bəndlərində hər hansı təhlükəli vəziyyət müşahidə edilmir. Ərazilərdə fasiləsiz monitorinq aparılır, operativ qruplar və xüsusi texnikalar hazır vəziyyətdə saxlanılır, qabaqlayıcı tədbirlər davam etdirilir. Mingəçevir su anbarından Kür çayının aşağı axınına hazırda saniyədə 500 kubmetr həcmində su ötürülür. Eyni zamanda son günlər çayda su səviyyəsinin tədricən stabilləşməsi və azalma tendensiyası müşahidə olunur. Mövcud vəziyyətə əsasən, Kür çayında su səviyyəsinin artması ilə bağlı yaşayış məntəqələri və ətraf ərazilər üçün hər hansı daşqın təhlükəsi və ya narahatlıq mövcud deyil.

### Daşqınların səbəbi

Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun Landşaftşünaslıq və təbiətdən istifadə şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Mirnuh İsmayılov mövzu ilə bağlı qəzetimizə açıqlamasında deyib ki, son dövrlərdə Kür çayında baş verən hadisələr güclü yağışların nəticəsi olaraq ortaya çıxıb. Gursululuğun bilavasitə iqlimlə bağlı olduğunu deyən şöbə müdiri qeyd edib ki, yağıntılı dövr çaylarda güclü daşqınlara səbəb olub: "Azərbaycanın xarakterik ərazilərində, xüsusilə Aran zonasında daşqınlar, Böyük Qafqazın şimal-şərq yamacında sellər, sürüşmələr, Lənkəran bölgəsində sürüşmə hadisələrinin, subasmaların artması müşahidə olundu. Vəziyyət o yerə çatdı ki, hətta Xəzər dənizinin səviyyəsində müəyyən qədər artım qeydə alındı".

Kür çayında baş verən daşqınların iki səbəbi olduğunu deyən alim bunun təbii və antropogen amillərlə bağlı olduğunu diqqətə çatdırıb. Təbii amillər aydındır. Kür hövzəsinə yağıntıların kifayət qədər düşməsi, yaya doğru yüksək və orta dağlıqda qarın sürətlə əriməsi çayda gursululuğa səbəb olur. Bu isə nəticədə daşqınlara gətirib çıxarır. Antropogen amillərə gəlincə isə bu, mürəkkəb və çoxtərəflidir. "Hadisələr göstərdi ki, yerüstü suları idarəetmədə kifayət qədər hazırlıqlı deyilik. Doğrudur, bu da mürəkkəb prosesdir. İqlimlə bağlı əvvəlcədən uzunmüddətli proqnoz vermək mümkün olmadığına görə, yaz aylarında bu qədər intensiv yağıntılar olacağı bilinmirdi. Ona görə də su anbarları vaxtında dolmuşdu. Buna görə yağış çox yağanda suyu çaya buraxmağa məcbur olurlar", - deyə o əlavə edib.

M.İsmayılov digər antropogen amillə bağlı da danışıb. O qeyd edib ki, bura əhalinin məskunlaşma xarakterini aid etmək olar. İnsanlar tarixən Kür sahilində məskunlaşmağa üstünlük veriblər. Sonralar kanallar çəkildikcə onların ətrafında yaşayış məntəqələri salınıbdır. Belə şəraitdə əhali həyətyanı sahələrini, yaşayış evlərini, təsərrüfatlarını çayın məcrasına doğru yaxınlaşdırıblar. Bu da daşqınlar zamanı arzuolunmaz nəticələrə gətirib çıxarır.

Alim hazırda Kürdəmir, Sabirabad, Ağcabədi, Zərdab, İmişli rayonları ərazilərinin və Hacıqabulun bəzi kəndlərinin subasmaya məruz qaldığını vurğulayıb: "Kürdəki daşqınlara qarşı vaxtilə çaya paralel bir-birindən təxminən 100-150 metr aralı iri bəndlər yaradılmışdı. Həmin bəndlər Yevlaxdan cənuba doğru uzanırdı. Bu, gözəl mühəndislik qurğusu idi. Kürdə su azalanda insanlar çayın mühafizə zonasını əkin sahələrinə, yaşayış məntəqələrinə çevirdilər. Ona görə də Kürdə daşqınlar müşahidə edilən kimi çox ciddi vəziyyət yaranır".

M.İsmayılov hazırda vəziyyətin stabil olduğunu, amma Kürdə gursululuğun dağlarda qar əriyib qurtarana qədər davam edəcəyini deyib. Şöbə müdiri qeyd edib ki, vəziyyətlə əlaqədar dövlət tərəfindən davamlı, operativ tədbirlər görülür, əhaliyə yardım göstərilir. Amma yerli icra və özünüidarə orqanları da bu işdə fəal olmalıdırlar. Əhalinin məskunlaşmasında, əkin sahələrinin ayrılmasında, pay torpaqlarının seçilməsində bu təhlükələr nəzərə alınmalıdır. Bu hal yenidən təkrarlana bilər. 15 il öncə olan daşqınlar da böyük fəsadlar törətmişdi, əhaliyə xeyli ziyan vurmuşdu. Yaz daşqınlarına qarşı müəyyən tədbirlər görmək lazımdır. Azərbaycanda bunun üçün böyük potensial var.

Göründüyü kimi, son illər su qıtlığı qlobal problemlərdən biri olsa da, intensiv yağışlar nəticəsində yaranan gursululuğun da müəyyən fəsadları ortaya çıxır. Proseslər göstərir ki, qarşıdan gələn yay aylarında su ehtiyatları baxımından əvvəlki illərdən daha az problem olacaq. Bununla belə həm quraqlıq, həm də gursululuq dövründə su ehtiyatlarının səmərəli və doğru idarə edilməsi əsas məqamlardan biri olaraq qalır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Üç tərəfdaş, bir layihə

### SOCAR və BP Özbəkistanda yerli şirkətlə birlikdə perspektivli neft yataqlarının işlənməsində iştirak edir

**Adətən, Özbəkistandan söz düşəndə, ilk növbədə, pambıq tarlaları göz önünə gəlir. Lakin bu dost və qardaş ölkənin iqtisadiyyatı bir çox sənaye sahələrini də əhatə edir. Özbəkistanın onlarla neft və qaz yatağı da var. İndiyədək Özbəkistanın ərazisində aşkar olunan karbohidrogen yataqları sayəsində neft-qaz sektoru ölkə iqtisadiyyatında xüsusi yer tutub. Bunlardan bəziləri onilliklərdir istismar edilir, bəziləri isə təzə kəşf olunanlardır.**



Azərbaycan və Özbəkistan neftçilərini sıx dostluq və əməkdaşlıq telləri bağlayır. Özbəkistan neftçiləri azərbaycanlı həmkarlarının təcrübəsini yüksək dəyərləndirirlər. Biz bunu hər il Bakıda keçirilən beynəlxalq neft-qaz sərgisinin iştirakçısı olan Özbəkistan nümayəndələrindən də dəfələrlə eşitmişik.

Əməkdaşlıq uğurla davam edir. Bunu ölkəmizdə ən iri neft,qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətindən aldığımız xəbər də təsdiqləyir. Belə ki, bu günlərdə BP Özbəkistan Respublikasının Şimali Üstyurd regionundakı altı blok üzrə Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) qoşulub. Saziş "Boyterak", "Terengquduq", "Birqori", "Xaroy", "Qoraqalpoq" və "Qulboy" bloklarını əhatə edir.

Qeyd edək ki, sözügedən sazişlər Daşkənddə keçirilən "Özbəkistan Neft-Qaz Konfransı 2026" çərçivəsində Özbəkistan Respublikasının energetika naziri Jurabek Mirzəmahmudov, "Uzbekneftegaz" SC-nin İdarə Heyətinin sədri Abduqani Sanginov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli tərəfindən imzalanıb.

Onu da xatırladaq ki, HPBS keçən il iyulun 24-də ilkin olaraq SOCAR, "Uzbekneftegaz" və Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında imzalanmışdı. BP sazişin mövcud tərəfdaşlarının - SOCAR və "Uzbekneftegaz"ın hər birindən 20 faiz iştirak payı almaqla bu HPBS-yə ümumilikdə 40 faizlik payla qoşulub. Odur ki, hazırda HPBS-də iştirak payları belədir: BP - 40 faiz, "Uzbekneftegaz" - 30 faiz və SOCAR (operator) - 30 faiz.

Özbəkistanın energetika naziri Jurabek Mirzəmahmudov bu layihənin həyata keçirilməsinin ölkələrimizin rəhbərliyinin güclü siyasi iradəsi və hərtərəfli dəstəyi sayəsində mümkün olduğunu və həmin səylərin qlobal investorlar üçün ən açıq və şəffaf şəraitin yaradılmasına yönəldiyini bildirib. Onun fikrincə, BP şirkətinin Üstyurd regionunda hasilatın pay bölgüsü sazişinə qoşulması sadəcə bir kommersiya razılaşması deyil, bu, beynəlxalq investorların Özbəkistanda aparılan islahatlara və enerji sektorunun inkişafına yönəlmiş strateji kursa olan inamın birbaşa göstəricisidir.

SOCAR-ın prezidenti Rövşən Nəcəf bu layihənin Azərbaycan ilə Özbəkistan arasında enerji sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib: "Layihə qardaş ölkələrimizin qarşılıqlı etimada, ortaq maraqlara və uzunmüddətli strateji hədəflərə əsaslanan münasibətlərinin bariz təzahürüdür. Uzun illər ərzində SOCAR ilə sıx və səmərəli tərəfdaşlıq münasibətlərinə malik BP-nin bu layihəyə qoşulması birgə səmərəli fəaliyyətin təmin olunmasına geniş imkanlar açacaq. İnanırıq ki, SOCAR-ın və BP-nin enerji sektorundakı zəngin təcrübəsi, eləcə də "Uzbekneftegaz"ın imkanları və səyləri layihənin uğurla icrasına, həmçinin regionun enerji potensialının inkişafına mühüm töhfə verəcək".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli də layihənin perspektivinə inandığını deyib: "Uzbekneftegaz" və uzunmüddətli tərəfdaşımız olan SOCAR ilə yanaşı, Özbəkistandakı ilk layihəmizə qoşulmağımızdan çox məmnunuq. Özbəkistanın böyük resurs potensialına malik olduğuna inanırıq və bu layihəyə qoşulmağımızı ölkənin neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dəstək olaraq region üçün uzunmüddətli faydalar gətirmək imkanı kimi dəyərləndiririk. Bu HPBS-yə qoşulmağımız eyni zamanda BP-nin uzunmüddətli artımına dəstək olaraq şirkətin öz geoloji kəşfiyyat portfelini daha da genişləndirdiyini göstərir".

"Uzbekneftegaz" SC-nin İdarə Heyətinin sədri Abduqani Sanginov da bu addımın uğur gətirəcəyinə əmindir: "BP kimi qlobal bir iştirakçının Şimali Üstyurd bloklarında geoloji kəşfiyyat işlərinə qoşulması Özbəkistanın enerji sektorunun investisiyalar üçün çox cəlbedici olduğunu təsdiqləyir. Əminik ki, bizim təcrübəmizin BP və SOCAR-ın qabaqcıl texnologiyaları, bilik və səriştələri ilə birləşməsi regionun resurs potensialının maksimum səmərəliliklə açılmasına imkan verəcək".

Hazırda layihə həyata keçirilməsinin ilkin mərhələsindədir. Belə ki, burada seysmik tədqiqat işləri aparılır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Dörd ayda ölkə üzrə 39,8 milyard manatlıqdan çox ÜDM istehsal edilib

**Cari ilin yanvar-aprel aylarında ölkədə 39875,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 0,7 faiz artmışdır.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ÜDM istehsalının 35,7 faizi sənaye, 10,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,9 faizi tikinti, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə sahələrinin, 22,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil etmişdir

Bu dövrdə informasiya və rabitə sahələrində əlavə dəyər real ifadədə 9,0 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 4,5 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 3,7 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 2,5 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 2,0 faiz, sənayedə 0,6 faiz, digər xidmət sahələrində 0,5 faiz artmış, tikintidə isə 19,0 faiz azalmışdır.

## Əsas kapitala yönəldilmiş investisiyalar 2,6 faiz artıb

**Dörd ay ərzində ölkə üzrə əsas kapitala 5 milyard 275,0 milyon manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 2,6 faiz çox investisiya yönəldilmişdir.**




Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi real ifadədə 39,7 faiz artaraq 2063,1 milyon, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 12,4 faiz azalaraq 3211,9 milyon manat olmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların həcmi məhsul istehsalı sahələri üzrə real ifadədə 19,9 faiz artaraq 3138,2 milyon manat, xidmət sahələri üzrə real ifadədə 13,8 faiz azalaraq 1420,4 milyon manat, yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyaların həcmi isə real ifadədə 18,3 faiz azalaraq 716,4 milyon manat olmuşdur.

## Sənaye sektorunda 21 milyard manatlıq məhsul istehsal olunub

**Yanvar-aprel aylarında sənaye sektorunda 21,1 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz çox sənaye məhsulu istehsal edilib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə emal sənayesində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, əczaçılıq məhsullarının istehsalı, toxuculuq sənayesi, elektrik avadanlıqlarının istehsalı, poliqrafiya məhsullarının istehsalı, tütün məmulatlarının istehsalı sahələrində olub.

## DMX WUF13-lə əlaqədar ölkəyə səfər edən şəxslərə müraciət ünvanlayıb

**Dövlət Miqrasiya Xidməti (DMX) Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ilə əlaqədar ölkəyə səfər edən şəxslərə müraciət ünvanlayıb.**

AZƏRTAC DMX-yə istinadla xəbər verir ki, müraciətdə WUF13 vizası ilə və ya vizasız qaydada BMT-nin Məskunlaşma Proqramının qeydiyyatından keçərək ölkəyə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 30 gün müddətinə Azərbaycanda olduğu yer üzrə qeydiyyatdan keçmək tələbindən azad olduqları qeyd edilib.

## Əmlak Məsələləri Dövlət Xidməti hansı rəqəmsal alətləri tətbiq edir?

**"Ağıllı şəhər" konsepsiyasının mərkəzində şəffaf torpaq və əmlak məlumatları dayanır. Əmlak Məsələləri Dövlət Xidməti bu istiqamətdə hansı rəqəmsal alətləri tətbiq edir və bu dəyişiklikləri vətəndaş gündəlik həyatında necə hiss edəcək?**



Dövlət Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, məkan məlumatlarının idarə olunması, daşınmaz əmlakın kadastrı, qeydiyyatı və qiymətləndirilməsi sistemlərinin modernləşdirilməsi dövlətin sosial-iqtisadi inkişafında, eləcə də dayanıqlı şəhərsalma və əmlak bazarının şəffaflığında mühüm əhəmiyyət kəsb edir.

"Əmlak Məsələləri Dövlət Xidməti torpaq və əmlak məlumatlarının idarə olunmasında bir sıra rəqəmsal alətlər tətbiq edir. Bunlara elektron kadastr sistemləri, onlayn reyestr xidmətləri, coğrafi informasiya sistemləri (GIS) və inteqrasiya olunmuş məlumat platformaları daxildir. Bu alətlər vasitəsilə vətəndaşlar əmlak qeydiyyatı, çıxarışların alınması və digər xidmətləri daha sürətli və şəffaf şəkildə əldə edə bilirlər. Nəticədə, vaxt itkisi azalır, korrupsiya riskləri minimuma enir və dövlət-vətəndaş münasibətlərində etibar güclənir", - deyə qurumdan bildirilib.

## Şərqi Zəngəzurun "yaşıl enerji" ilə təminatında daha bir addım

**Məlumdur ki, Azərbaycanda yazın və payızın ömrü qış fəsli ilə müqayisədə daha çoxdur. Və bu uzun ayların ardından qış sona çatanda demək olar ki, bir sıçrayışla yay günlərinin isti nəfəsi ilə üzləşirik. Günəş öz şiddətli istiliyi ilə torpağı və göyü qızdırarkən düşünmüşük: kaş günəşin isti nəfəsini toplayıb qışın soyuq günlərinə ötürə bilsəydik. 30-40 il öncə belə arzulamışıq...**



İllər öncə xəyal etdiyimiz indi müasir texnologiyalarla gerçəkləşib və günəş enerjisi kimi həyatımıza daxil olub. Elmi sübutlarla məlum olub ki, hər dəqiqə yerə sancılan günəş zərrələri bəşəriyyətin birillik enerji tələbatını ödəmək üçün yetərlidir. Hələ ötən əsrin 70-ci illərində SSRİ-də çox geniş olmasa da, günəş-elektrik stansiyalarından səhralıq yerlərdəki yaşayış məskənlərində istifadə olunurdu. Buna baxmayaraq, son illərə qədər bu enerjinin iqtisadi faydası o qədər də diqqət çəkmirdi, əsasən, ekoloqlar üçün maraqlı və faydalı idi. İndi dünyada günəş əsas enerji mənbəyi hesab olunur və ondan istifadə etməyə maraq daha çox artıb.

Təbii ki, Azərbaycan da bu qlobal trendləri izləyir. Son illər ölkədə günəş və digər bərpaolunan enerji mənbələrinin inkişafı sürətlənib, bir sıra bölgələrdə günəş-elektrik stansiyaları fəaliyyətə başlayıb və enerji istehsalında alternativ mənbələrin payı getdikcə artır. Ölkəmiz coğrafi mövqeyinə görə günəş enerjisi ilə zəngindir - bu, danılmaz faktdır. Azərbaycanda günəşin istiliyi, eləcə də şüaları elektrik və istilik enerjisi üçün böyük imkanlar yaradır, demək olar ki, hər binanın damına panellər qoymaq mümkündür. Mütəxəssislərin hesablamasına görə, ölkə üzrə 1 milyon sosial və ictimai binaya quraşdırılan panellər təxminən 1000 meqavat elektrik enerjisi verə bilər ki, bu da ildə təxminən 1 milyard kubmetr təbii qaza qənaət deməkdir. Azərbaycanın günəş şüalanmasının illik 2400-3200 saat davam etməsi bu potensialı reallığa çevirir və həm elektrik, həm də istilik enerjisinin istehsalını artırmağa geniş imkan açır.

Bu baxımdan, mayın 9-da Cəbrayıl rayonunun Soltanlı kəndində "AzərEnerji" ASC tərəfindən istifadəyə verilən 330 kV-luq "Şəfəq" yarımstansiyası işğaldan azad edilmiş ərazilərdə enerji təhlükəsizliyində mühüm rol oynayır. Belə bir uğuru qeyd etmək üçün Prezident İlham Əliyev də bu enerji obyektinin açılış mərasimində iştirak edib. Dövlət başçısının diqqətinə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı günəş-elektrik stansiyası və ən böyük, birbaşa xarici investisiya layihəsi olaraq BP şirkəti tərəfindən Cəbrayılda tikilən 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən irihəcmli işlər həyata keçirilib. Bu çərçivədə "AzərEnerji" tərəfindən Cəbrayılda 330 kV-luq rəqəmsal yarımstansiya tikilib və bu yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur "yaşıl enerji"nin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

"Şəfəq" yarımstansiyası müasir rəqəmsal sistemlər, açıq və qapalı, həmçinin idarəetmə qurğuları, həmçinin Rəqəmsal İdarəetmə Mərkəzi ilə təchiz olunub. Yarımstansiyada çalışan işçi heyət əsasən yeni məskunlaşmış yerli əhali arasından seçilib və onlar müvafiq təlimlərdən sonra fəaliyyətə başlayıblar. Yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur "yaşıl enerji"nin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

"Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün həyata keçirilən layihənin əsas məqsədi dövlət və özəl sektor arasında əməkdaşlığı gücləndirmək, karbon emissiyalarını azaltmaq, təbii qaza qənaət etmək, "yaşıl enerji"nin payını artırmaq və ölkənin enerji təhlükəsizliyini möhkəmləndirməkdir. Bu irihəcmli layihə paralel olaraq digər obyektlərdə də davam etdirilir. Bu məqsədlə Səngəçal Terminalının "yaşıl enerji" ilə təchiz olunması üçün tikilən yeni 220 kV-luq yarımstansiyada işlər artıq yekunlaşıb. İnfrastrukturun işləmə mexanizmi belədir ki, 140 MVt gücündə modul tipli qaz elektrik stansiyasının fəaliyyəti dayandırılacaq, terminalın illik tələbatının 500 milyon kilovat-saatı bərpaolunan enerji hesabına təmin olunacaq və nəticədə illik 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək. Bu addım BP-nin Xəzər regionundakı əməliyyat tullantılarının illik 260-330 min ton azaldılması ilə nəticələnəcək.

Ümumiyyətlə isə bərpaolunan enerji layihələrinin icrası enerji sisteminin modernləşdirilməsini sürətləndirib və konkret nəticələr verməyə başlayıb. "AzərEnerji"nin məlumatına görə, bu dinamika xüsusilə bol sulu, günəşli və küləkli günlərin səmərəli olduğu aprel, may aylarında daha aydın hiss edilib. Belə ki, müxtəlif günlərin müəyyən saatlarında ölkə üzrə elektrik enerjisi istehlakının 36-41 faizi məhz "yaşıl enerji" hesabına təmin olunub. Məsələn, aprelin 20-də ümumilikdə 64,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 36,5 faizi bərpaolunan mənbələrin payına düşüb. Həmin enerjinin 15,9 milyon kilovat-saatı işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, su-elektrik stansiyalarında, 7,6 milyon kilovat-saatı isə günəş və külək stansiyalarında istehsal olunub. İcra edilmiş tədbirlər hesabına enerji sistemində bəzi saatlarda "yaşıl enerji"nin payı 41 faizə çatıb.

Göründüyü kimi, Azərbaycan enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, bərpaolunan enerji sahəsində də regionda lider mövqeyini möhkəmləndirir. Bu mənada artıq fəaliyyət göstərən bərpaolunan enerji stansiyaları, tikilməkdə olan "Şəfəq" Günəş-Elektrik Stansiyası və digər layihələr iqtisadiyyatın dayanıqlı inkişafına və ətraf mühitin qorunmasına xidmət edir. Beləliklə, günəş enerjisi artıq xəyallardan çıxaraq, gerçək zamanda ölkəmizin hər yerinə işıq saçır, gələcəyin "yaşıl enerji" dövrünü Azərbaycan üçün aydın və parlaq edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

15 May Beynəlxalq Ailə günüdür

# Sivil cəmiyyətin məhək daşı

*"Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Ailə Azərbaycan xalqının yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi dövlətin möhkəmlənməsində mühüm rol oynayır. Ailə tarixən ülvi duyğuların hüdudsuzluğundan, kövrək, həssas ruhundan rişələnən məhəbbət və anlaşma ittifaqı sayılıb. Hər kəs həyatın mənasını birinci növbədə bu müqəddəs, saf izdivacda tapıb.**

Ailə münasibətləri qərinələr boyu müxtəlif təkamül və inkişaf mərhələlərini keçməklə, insanlığın mövcudluq və yaşam tərzinin əsasına çevrilib. Ailəsi üçün bütün varlığı, əzmi ilə çalışan insan, əslində, o qədər də fərqində olmadığı bir məqsədi özü üçün hədəfləyir - cəmiyyətin sağlam özəyini və gələcəyini formalaşdırmaq! Ailə sivil cəmiyyətin məhək daşını, bünövrəsini təşkil edərək həm də nəsillərin tarixi varisliyinin qoruyucusu, sabitlik və inkişaf meyarı hesab edilir. Məhz buna görə də ailə institutu ictimai həyatı nizamlayan, onun ahəngdarlığını təmin edən bəşəri və milli dəyərləri varlığında yaşadır.

Tarix də təsdiq edir ki, cəmiyyətlərin və sivilizasiyaların çökmə dövrləri əvvəlcə ailənin böhranı ilə özünü büruzə veirir. Eyni zamanda bunun əksi də göz qabağındadır: inkişaf etmiş cəmiyyətlərdə ailənin sağlamlığı mənəvi və milli dəyərlərin daşıyıcısı kimi özünü göstərir və həmin cəmiyyət tərəfindən qorunur. Hazırda xüsusən Avropa ölkələrində ailə institutunun zəifləməsi, bəzi hallarda hətta sarsılması ilə bağlı narahatçılığın artması məsələnin həyati əhəmiyyətini, aktuallığını bir daha nümayiş etdirir.

Azərbaycana gəlincə, Şərq və Qərb mədəniyyətlərinin tarixən qabarıq duyulduğu tolerant ölkəmizdə ailə institutunun monolitliyi bu gün də qorunub saxlanılır. Cəmiyyətimizdə ailə institutuna böyük qiymət verilir. Milli ideologiyamızı - azərbaycançılığı da ailə kultundan kənarda təsəvvür etmək mümkün deyil. Obrazlı desək, folklor üzərində köklənmiş, mif qaynağından su içmiş Azərbaycan ailəsi əsrlərin sınağından üzüağ çıxaraq bizim günlərə çatıb. Onun gücü adət-ənənəsində, milli-mənəvi dəyərlərində, böyük-kiçik məsələsində, övlad-valideyn, qadın-kişi münasibətlərindədir.

Bu gün Azərbaycan məhz tarixən formalaşmış fundamental ailə dəyərlərini qloballaşmanın mənfi təsirlərindən qorumağa çalışır. Etiraf olunmalıdır ki, xalqımızın ailə modeli nəinki Qərbdə, həm də Şərqdə unikal hesab olunan bir modeldir. Ailədaxili münasibətlərin ciddi əxlaq normalarına söykənməsi qədimdən bu günə kimi yaşayır. Bizim ailə modelində hər kəs öz yerini, mövqeyini, funksiyasını bilir, məqsədini düzgün dərk edir.



Lakin zaman dəyişir və biz də zamanla birlikdə dəyişirik. Dəyişən zaman isə yeni həyat reallıqlarını diktə etməklə yanaşı, insanları yeni birgəyaşayış prinsiplərinə uyğunlaşmağa sövq edir. Cəmiyyət həyatındakı yeniliklərin mütərəqqi xarakteri bütün dövrlərdə ailənin yaşam tərzinə, məqsədlərinə, ümumilikdə prinsiplərinə təsirsiz keçmir. Özlüyündə "kiçik dövlət" olan Azərbaycan ailəsi də zamanın reallıqlarına adekvat cavab verərək modernləşir, sosial, mədəni, iqtisadi mənafelərini təmin etmək üçün dövrün nəbzini tutmağa çalışır. Bu modernləşmə geyimdən tutmuş düşüncəyə, davranışdan başlamış dünyagörüşə qədər çox məsələləri əhatə edir. Bəzi ölkələrdə ailə konfliktlərinin, boşanmaların səbəbləri gender problemləri ilə bağlı olduğu halda, respublikamızda bu sahədə vəziyyət əsaslı şəkildə fərqlənir.

Azərbaycanda qadın hüquqlarının qorunması üçün əsaslı qanunverici baza da mövcuddur. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında hələ 2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapmışdır. Əsas məqsədi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması olan qanun gender bərabərliyi ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini və vəzifələrini müəyyən etmişdir. Bütün bunlar Azərbaycan qadınının ictimai-siyasi fəallığını artırır, cəmiyyətimizin inkişafı, dövlət quruculuğu prosesində onların rolunu gücləndirir.

Ümumiyyətlə, dövlətin ailə siyasətinin əsası ölkədə bu institutun möhkəmləndirilməsi, mövcud problemlərin nəzərə alınaraq həll yollarının tapılması, xüsusilə həssas təbəqədən olan ailələrin problemlərinin kompleks şəkildə həll edilməsi prinsipi ilə müəyyənləşdirilmişdir. Son illər əhali arasında mütəmadi olaraq ailənin qorunub saxlanılması, gənclərin vətənpərvərlik ruhunda və milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi, onların öncədən ailə həyatına hazırlanması, sağlam həyat tərzi və reproduktiv sağlamlıq, ailə planlaşdırılması mövzularında, valideyn məsuliyyətinin artırılması və ailələri əhatə edən digər istiqamətlərdə tədbirlər həyata keçirilir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək, onun müdafiəsini təmin etmək üçün dövlət tərəfindən ardıcıl olaraq zəruri layihələr reallaşdırılır.

Güclü ailə həm də güclü dövlət deməkdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaradılan Ailə, Qadın və Uşaq Problemlər üzrə Dövlət Komitəsinin əsas siyasət istiqamətləri içərisində ailə dəyərlərinin qorunması, gənc ailələrin dəstəklənməsi və ailə institutunun möhkəmləndirilməsi mühüm yer tutur. Komitənin fəaliyyətində gender bərabərliyinin təmin edilməsi, qadın məşğulluğunun artırılması və məişət zorakılığının qarşısının alınması, uşaq hüquqlarının müdafiəsi, həssas təbəqədən olan uşaqların reabilitasiyası və rəqəmsal təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir.

Bundan başqa, uşaq və ailələrə dəstək mərkəzləri ölkənin müxtəlif rayonlarında icma əsaslı sosial-psixoloji xidmətlər göstərir. Qızların təhsilinə dəstək, erkən nikahların qarşısının alınması və gənc qızların ali təhsilə cəlb olunması layihələri icra edilir. Psixoloji seminarlar aparılır, məktəb psixoloqları üçün məişət zorakılığından zərər çəkmiş uşaqların vaxtında müəyyən edilməsi təlimləri təşkil olunur. Rəqəmsal təhlükəsizlik görüşləri - virtual mühitdə uşaqların qarşılaşa biləcəyi risklər və kibertəhlükəsizlik mövzusunda maarifləndirmə aparılır. Yeri gəlmişkən, qeyd edək ki, artıq ölkədə "Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu planın icrasını əlaqələndirir və monitorinqini aparır.

Bu gün dövlət ailə siyasətinin əsas məqsədlərindən biri mədəni kimliyimizin qorunması, sosial inklüzivlik, bərabərlik və davamlı inkişafın təmin edilməsidir. Eyni zamanda daha firavan və harmonik gələcək naminə çalışmaq, informasiya sivilizasiyası və sosial şəbəkələr fenomeninin cəmiyyət həyatına aşırı təsiri və müdaxiləsi nəticəsində ailələrin üzləşdiyi böhranı aradan qaldırmaq və ailənin sosial funksiyalarının, sosial missiyasının azalması nəticəsində dövlət səviyyəsində perspektivlər baxımından arzuolunmaz nəticələrin qarşısını almaqdır.

Təcrübə göstərir ki, normal ailədə böyümüş, düzgün tərbiyə, təhsil almış gəncin qurduğu ailə möhkəm olur. Deməli, gənclərin erkən yaşlarından milli ruhda tərbiyə alması, yaxşı oxuması, bilikli, intellektli olması, işləmək, çalışmaq, karyera qurmaq vərdişlərinə yiyələnməsi ailənin monolitliyi baxımından vacib amillərdir. Böyük rus yazıçısı Lev Tolstoy "Anna Karenina" romanının epiqrafında yazır: "Bütün xoşbəxt ailələr eynidir, hər bədbəxt ailə isə özünəməxsus şəkildə bədbəxtdir". Ailəsi ilə qürur duyan insan nə qədər xoşbəxtdirsə, bundan məhrum olan bir o qədər miskindir. Biz azərbaycanlılar üçün ailə institutu tarixən firavan həyatın, uğurun əsası olub. Bu, indi də belədir, gələcəkdə də belə olacaq.

Gəlin, ailə dəyərlərimizi, deməli, xoşbəxtliyimizi qoruyaq!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# UNICEF: İqtisadi bərabərsizlik varlı ölkələrdə uşaqların sağlamlığına və təhsilinə mənfi təsir göstərir

Varlı ölkələrdə iqtisadi bərabərsizlik uşaqların sağlamlığına və akademik göstəricilərinə mənfi təsir göstərir. AZƏRTAC xəbər verir ki, bu barədə UNICEF-in yeni araşdırmasında deyilir. Nəticələr 44 yüksək gəlirli ölkədəki vəziyyətin təhlilinə əsaslanır.

Orta hesabla, bu ölkələrdə ən varlı ev təsərrüfatlarının 20 faizinin gəliri ən aztəminatlı ev təsərrüfatlarının 20 faizinin gəlirindən beş dəfədən çox yüksəkdir. Buna baxmayaraq, təxminən hər beş uşaqdan biri yoxsulluq içində yaşayır.



"İqtisadi bərabərsizlik uşaqların necə oxumalarına, nə ilə qidalandığına və həyatlarını necə qəbul etdiklərinə birbaşa təsir göstərir. Bərabərsizliyin ən ağır nəticələrini məhdudlaşdırmaq üçün təcili olaraq ən həssas icmalarda uşaqların sağlamlığına, qidalanmasına və təhsilinə investisiyaları artırmaq lazımdır", - deyə UNICEF-in "İnnocenti" Araşdırma Mərkəzinin direktoru Bo Viktor Nyulund bildirib.

Hesabata görə, iqtisadi bərabərsizliyin yüksək səviyyəsi ilə uşaqların sağlamlığı arasında birbaşa əlaqə müşahidə olunur. Belə ki, bərabərsizliyin ən yüksək səviyyəsi olan ölkələrdə böyüyən uşaqlar bərabərsizliyin daha aşağı səviyyəsi olan ölkələrdəki həmyaşıdlarına nisbətən 1,7 dəfə çox artıq çəkidən əziyyət çəkirlər. Bu, daha az keyfiyyətli qidalanma ilə bağlı ola bilər.

Hesabatda iqtisadi bərabərsizliklə təhsil səviyyəsi arasındakı əlaqəyə də diqqət çəkilir. Bildirilir ki, varlı və kasıb uşaqlar arasındakı fərqin daha böyük olduğu ölkələrdə uşaqların test nəticələri, adətən, daha aşağı olur. Bundan əlavə, vurğulanır ki, sosial bərabərsizliyin yüksək olduğu ölkələrdə uşaqların əsas oxu və riyaziyyat bacarıqlarını mənimsəmədən məktəbi bitirmə ehtimalı 65 faizə çatır. Bərabərsizliyin daha aşağı olduğu ölkələrdə isə bu göstərici cəmi 40 faiz təşkil edir.

Bu cür fərqlər ölkələrin daxilində də müşahidə olunur. Belə ki, ən varlı ailələrdən olan 15 yaşlı uşaqların orta hesabla 83 faizi əsas oxu və riyaziyyat bacarıqlarına malikdir. Ən aşağı gəlirli ailələrdən olan həmyaşıdları arasında isə bu göstərici cəmi 42 faiz təşkil edir.

Hesabatda hökumətlər bərabərsizliyin uşaqların rifahına təsirini azaltmaq üçün tədbirləri gücləndirməyə çağırılır. Bunun üçün, ilk növbədə, uşaq yoxsulluğunun azaldılmasının vacibliyi vurğulanır. Tədqiqat müəllifləri qeyd edirlər ki, heç bir uşağın yoxsulluq şəraitində böyüməməsi üçün sosial dəstək sistemləri gücləndirilməlidir. Bu tədbirlərə ailə və uşaq müavinətlərinin, eləcə də minimum əməkhaqqının artırılması daxildir.

Bundan başqa, hesabatda əlverişsiz ərazilərdə yaşayan əhalinin dəstəklənməsinin vacibliyi vurğulanır. Xüsusilə infrastrukturun inkişafı, subsidiyalı mənzillərə çıxışın genişləndirilməsi, eləcə də "yaşıl zona"lar və istirahət məkanları kimi ictimai sahələrə investisiya qoyuluşu əsas prioritetlər kimi qeyd olunur.

Təhsil sahəsinə ayrıca diqqət yetirilir. Müəlliflər məktəblərdə sosial-iqtisadi bərabərsizliyin azaldılmasına, təhsil müəssisələrinin ailə gəlirlərindən asılı olmayaraq, lazımi resurslarla təmin olunmasına və uşaqların sağlam, faydalı məktəb yeməkləri ilə təmin edilməsinə çağırırlar.

UNICEF, həmçinin bərabərsizliyin uşaqların və onların ailələrinin həyatına təsirini daha yaxşı anlamaq və onların rifahını artıran tədbirlər hazırlamaq üçün uşaqların öz fikirlərinin nəzərə alınmasını vacib hesab edir.

# Hantavirus düşünüldüyü qədər qorxuludurmu?

## Ümumdünya Səhiyyə Təşkilatı bunun COVID-19 tipli qlobal təhlükə yaratmadığını açıqlayıb

**Son** günlər dünya mediasının əsas müzakirə mövzularından biri hantavirus infeksiyasıdır. İspaniyaya məxsus Kanar adaları istiqamətində hərəkət edən "MV Hondius" kruiz gəmisində qeydə alınan yoluxma halları və üç nəfərin ölümü beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq yaradıb. Sosial şəbəkələrdə və bəzi media platformalarında "yeni pandemiya" ehtimalı ilə bağlı iddialar səslənsə də, Ümumdünya Səhiyyə Təşkilatı vəziyyətin nəzarət altında olduğunu və bunun COVID-19 tipli qlobal təhlükə yaratmadığını açıqlayıb. Bununla belə, hadisə bir daha göstərdi ki, zoonotik infeksiyalar, yəni heyvanlardan insanlara keçən xəstəliklər müasir dünyanın ən ciddi səhiyyə risklərindən biri olaraq qalır.

Hantavirus "Hantaviridae" ailəsinə aid RNT virusudur və adını ilk dəfə aşkarlandığı Cənubi Koreyadakı Hantaan çayından götürüb. Virus əsasən siçan və siçovul kimi gəmiricilər vasitəsilə yayılır. Maraqlıdır ki, bu heyvanlar çox vaxt özləri xəstələnmədən virus daşıyıcısına çevrilirlər. Onların sidik, nəcis və tüpürcəyi ətraf mühiti çirkləndirir, insanlar isə bu ifrazatlarla təmas nəticəsində yoluxurlar.

Mütəxəssislərin sözlərinə görə, hantavirusun əsas təhlükələrindən biri ilkin simptomlarının adi qrip və ya respirator infeksiyalara bənzəməsidir. Xəstəliyin ilk mərhələsində yüksək hərarət, əzələ ağrıları, zəiflik, baş ağrısı, halsızlıq, ürəkbulanma və qusma müşahidə edilir. Bu səbəbdən bir çox xəstə vəziyyətin ciddiliyini dərhal anlamır. Lakin infeksiya irəlilədikcə ağır tənəffüs çatışmazlığı, nəfəs darlığı, öskürək, böyrək funksiyasının pozulması və təzyiqin kəskin enməsi kimi həyati təhlükəli hallar yarana bilir.

Dünyada hantavirusun iki əsas klinik forması mövcuddur. Avropa və Asiyada daha çox rast gəlinən forma hemorragik qızdırma və böyrək sindromu ilə müşahidə olunur. Amerika qitəsində isə daha təhlükəli sayılan hantavirus ağciyər sindromu yayılıb. Bu forma sürətlə inkişaf edən tənəffüs çatışmazlığı ilə müşayiət olunur və onun ölüm riski yüksək hesab edilir.

Hazırda beynəlxalq diqqətin mərkəzində olan hadisə də məhz Andes virusu ilə bağlıdır. Andes virusu hantavirusun Cənubi Amerikaya xas növlərindən biridir və digər hantaviruslardan fərqli olaraq nadir hallarda insandan insana keçə bilir. Alimlər bildirirlər ki, belə yoluxmalar əsasən ailə üzvləri və ya yaxın təmasda olan şəxslər arasında baş verir.




"MV Hondius" kruiz gəmisində səkkiz yoluxma halı qeydə alınıb, onlardan altısı laboratoriyada Andes virusu kimi təsdiqlənib. Üç nəfərin həyatını itirməsi isə vəziyyətin nə qədər ciddi olduğunu ortaya qoyub. Gəmi həftələrlə dənizdə qaldıqdan sonra Kanar adalarındakı Tenerifeyə çatıb və sərnişinlərin təxliyəsi ÜST ilə İspaniya hakimiyyətinin hazırladığı xüsusi təhlükəsizlik planı əsasında həyata keçirilib. Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyindən bildirilib ki, beynəlxalq səhiyyə strukturları sürətli cavab tədbirləri üzərində işləyir. Əsas məqsəd xəstələrin təhlükəsizliyini təmin etmək, yoluxma zəncirini izləmək və virusun daha da yayılmasının qarşısını almaqdır.

Qurumun məlumatına görə, insanlar əsasən yoluxmuş gəmiricilərin ifrazatı ilə təmas nəticəsində infeksiyaya yoluxurlar. Xüsusilə çirklənmiş tozun nəfəsə çəkilməsi əsas risk faktorlarından sayılır. Havalandırılmayan qapalı məkanlar, zirzəmilər, anbarlar, kənd evləri və tövlələr təhlükəli mühit hesab edilir.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, belə məkanların təmizlənməsi zamanı quru süpürgə və ya tozsorandan istifadə virus hissəciklərini havaya qaldıra bilər. Ən təhlükəsiz üsul əvvəlcə məkanı yaxşı havalandırmaq, daha sonra isə əlcək və qoruyucu maska ilə səthləri nəm şəkildə təmizləməkdir.

ÜST qeyd edir ki, virusun insandan insana keçməsi son dərəcə nadirdir və yalnız Andes virusunda müşahidə olunub. Təşkilat hazırda Kanada, Almaniya, Böyük Britaniya, ABŞ, Türkiyə və digər ölkələr daxil olmaqla 12 dövləti məlumatlandırıb. Beynəlxalq təmasların izlənməsi davam etdirilir. Azərbaycan Səhiyyə Nazirliyi də məsələ ilə bağlı açıqlama yayıb. Bildirilib ki, Azərbaycan hantavirus üzrə endemik bölgə hesab olunmur və ölkədə bu virusa yoluxma halı qeydə alınmayıb. Nazirliyin məlumatına əsasən, ölkə ərazisində yaşayan gəmiricilər arasında hantavirusa rast gəlinmir və mövcud epidemioloji vəziyyət əhali üçün əlavə risk yaratmır. Bununla yanaşı, Azərbaycanda həm insan, həm də heyvan sağlamlığı laboratoriyalarında hantavirusun PCR üsulu ilə yoxlanılması üçün texniki imkanların mövcud olduğu vurğulanıb. Riskli ölkələrdən gələn və uyğun klinik əlamətlər göstərən şəxslər zərurət yarandığı halda müayinədən keçə bilərlər.

Hazırda hantavirusa qarşı təsdiqlənmiş xüsusi antiviral müalicə və ya geniş istifadə olunan peyvənd yoxdur. Müalicə əsasən dəstəkləyici xarakter daşıyır. Ağır hallarda xəstələrə oksigen terapiyası, süni tənəffüs aparatı və dializ tətbiq oluna bilər. Həkimlər bildirirlər ki, erkən diaqnoz sağ qalma şansını artıran əsas amildir.

Son araşdırmalar hantavirusun uzunmüddətli təsirləri ilə bağlı da ciddi narahatlıq yaradıb. Çilidə aparılan tədqiqat zamanı hantavirus ürək-ağciyər sindromundan sağ çıxmış xəstələr bir neçə ay izlənilib və onların heç birinin tam sağalmadığı müəyyən olunub. Yorğunluq, yaddaş problemləri, yuxusuzluq, saç tökülməsi, narahatlıq və psixoloji gərginlik ən çox rast gəlinən davamlı simptomlar arasında yer alıb. Araşdırmada diqqət çəkən məqamlardan biri də sosial təsirlər olub. Sağ qalan bəzi şəxslər ətrafdakılar tərəfindən "yoluxucu" kimi qəbul edildiklərini və sosial təcrid yaşadıqlarını bildiriblər. Bir sıra xəstələr uzun müddət iş və təhsilə qayıda bilməyiblər.

Bütün bunlara baxmayaraq, ÜST bir daha vurğulayır ki, mövcud vəziyyət pandemiya təhlükəsi yaratmır. Təşkilatın baş direktoru Tedros Gebreyesus bildirib ki, Andes virusu yeni xəstəlik deyil və onun yayılma mexanizmi uzun illərdir məlumdur. Onun sözlərinə görə, hantavirusun yayılması COVID-19-dan tamamilə fərqlənir və virusun sürətli qlobal yayılma potensialı aşağı qiymətləndirilir.

Son hadisələr isə bir daha göstərir ki, iqlim dəyişiklikləri, urbanizasiya və insanların vəhşi təbiətlə daha sıx təması zoonotik xəstəliklərin yaranma riskini artırır. Mütəxəssislər hesab edirlər ki, gələcək təhlükələrin qarşısını almaq üçün yalnız müalicəyə deyil, erkən monitorinq, profilaktika və ictimai maarifləndirməyə daha çox investisiya ayrılmalıdır.

Hantavirus hadisəsi dünya ictimaiyyətinə mühüm bir mesaj verdi ki, təhlükəli infeksiyalar yalnız pandemiya halında deyil, lokal səviyyədə ortaya çıxdıqda da ciddi nəzarət tələb edir. Eyni zamanda düzgün informasiya və elmi əsaslı yanaşma ictimai təşvişin qarşısını almaqda həlledici rol oynayır. ÜST-nin "bu, yeni COVID deyil" mesajı da məhz panikanın qarşısını almağa yönəlib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Teatr xadimlərimiz

# Şöhrət onu dəyişə bilmədi

**Azərbaycan teatr və kino sənətində elə simalar var ki, onlar yalnız yaratdıqları obrazlarla deyil, öz xarakterləri, həyat tərzləri və daxili aləmləri ilə də yadda qalırlar. Belə sənət adamlarından biri də Əməkdar incəsənət xadimi, görkəmli teatr rəssamı və aktyor Elçin Məmmədov idi. O, sənətdə rənglərin dilinə vaqif olan, bacarıqlı rəssam, ekranda isə sadəliyi və səmimiyyəti ilə tamaşaçını heyran edən aktyor idi.**



Elçin Məmmədov 1946-cı il mayın 29-da sənətkar ailəsində dünyaya gəlib. Atası Azərbaycanın görkəmli teatr xadimi, SSRİ Xalq artisti Mehdi Məmmədov, anası məşhur aktrisa, Xalq artisti Barat Şəkinskaya idi. İllər sonra tale onu da ata-anası kimi çəkiliş meydanlarına aparıb, kinoaktyor kimi tanınıb, tamaşaçıların rəğbətini qazanıb. Ancaq valideynlərinin yolunu tam şəkildə təkrarlamayıb, teatr rəssamı kimi çalışıb. Çünki uşaqlıq çağlarında valideynlərinin şöhrəti ona sevincdən çox qayğı gətirmişdi. Sənətə bağlı olan ata-anası evdə az olurdu. Elçinin qayğısını daha çox özündən 14 yaş böyük bacısı Solmaz çəkirdi. Elçin həddindən artıq dəcəl uşaq olub. Nadincliyinə görə, müəllimləri ondan həmişə şikayətləniblər. Barat xanımı buna görə tez-tez məktəbə çağırıblar.

Elçin Məmmədov uşaqlıqdan rəssamlığa meyil göstərib. Orta məktəbi bitirəndə rəssam olmaq arzusu ilə sənədlərini Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Rəssamlıq fakültəsinə təqdim edib. İmtahanlardan uğurla keçərək tələbə adını qazanıb. Hələ tələbə ikən yaradıcılıq qabiliyyəti ilə diqqəti cəlb edib. Peşəkar səhnədə ilk işi uşaqlıq dostu Azər Paşa Nemətovun Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyduğu "Mənim qardaşım klarnetdə çalır" tamaşasına verdiyi tərtibat olub. Bu iş gənc rəssamın sənət yolunda həm də ilk uğuru kimi yadda qalıb.

Sonralar Elçin Məmmədov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamı olub. Ümumiyyətlə, o, Azərbaycanın demək olar ki, bütün teatrlarında çalışıb. Akademik Milli Dram Teatrı, Musiqili Teatr, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, eləcə də Naxçıvan, Gəncə, Lənkəran, Sumqayıt və Mingəçevir teatrlarında onun səhnə tərtibatı verdiyi tamaşalar böyük maraq doğurub. Elçin Məmmədov yalnız Bakıda deyil, Moskva, Arxangelsk və digər şəhərlərdə də 100-dən çox tamaşanın rəssamı olub. O, hazırladığı səhnə tərtibatları ilə tamaşanın ruhunu rənglərlə ifadə edə, məkan həllinə çevirə bilib. Akademik Milli Dram Teatrında "Xırs quldurbasan", "Dəli yığıncağı", "İblis", "Meşşanlar", "İnsan", "Hamlet", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Danabaş kəndinin məktəbi", "Şamdan bəy", "Keçən ilin son gecəsi", "Salam, Hotsi", Azərbaycan Dövlət Rus Dram Teatrında "Həyatın dibində", "Mənim məhəbbətim Elektra", "Qar kraliçası", "Şeyx Sənan", "Amansız oyunlar" və başqa tamaşaların uğur qazanmasında onun da böyük xidməti olmuşdu.

Amma geniş tamaşaçı kütləsi Elçin Məmmədovu daha çox kinoaktyor kimi tanıyıb. O, körpəlikdən teatr və kino sənətinə xidmət edən sənətkarların arasında olsa da, aktyorluğa gəlişi təsadüf nəticəsində baş verib. Görkəmli kinorejissor, Xalq artisti Tofiq Tağızadə "Yeddi oğul istərəm" filmində Mirpaşa roluna çəkmək üçün əvvəlcə Xalq artisti Eldəniz Zeynalovu dəvət edib. Lakin aktyor at çapmaq istəməyib. Kinorejissor seçimini dəyişməli, bu rola Elçin Məmmədovu çəkməli olub.

Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. "Yeddi oğul istərəm"də ən yaddaqalan obrazlarından biri də Mirpaşa idi. Elçin Məmmədov kobud, sərt görünüşlü Mirpaşanın daxili dünyasını, sadəliyini, saflığını ustalıqla canlandırıb. Kinoda bu ilk rolu onu məşhurlaşdırıb. Küçədə onu "Mirpaşa" deyə çağırıblar.

"Yeddi oğul istərəm"dən sonra kino sənətində aktyor kimi fəaliyyətini davam etdirib. "Dədə Qorqud", "Dantenin yubileyi", "Yarımçıq qalmış mahnı", "Xəzinə", "Toya dəvətnamə", "Qəribə adam", "Bağlı qapı" kimi maraqlı filmlərdə yaddaqalan obrazlar ifa edib.

Elçin Məmmədov "İblis" tamaşasına verdiyi tərtibata görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı alıb. O, 1991-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına, iki dəfə - 1999 və 2001-ci illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına layiq görülüb.

Son quruluş verdiyi tamaşa yenə də uşaqlıq dostu Azər Paşa Nemətovun hazırladığı "Hamlet" olub. Amma tale ona bu tamaşanın premyerasını görməyi nəsib etmədi.

Kənardan cüssəli, zarafatcıl, sağlam insan təsiri bağışlasa da, əslində, hələ 33 ağır infarkt keçirmişdi. Bundan sonra ürəyindən gileylənməmişdi. 2001-ci ilin fevralında isə həmişəki kimi emalatxanasına gedib. Halı pisləşib. Yaxınlıqdakı adamlardan xahiş edib ki, emalatxanadakı rəssamlardan birini çağırsınlar. Otaq yoldaşı gələndə Elçin Məmmədov artıq həyata gözlərini əbədi yummuşdu. Rəssam, aktyor Elçin Məmmədovun 2001-ci il fevralın 18-də - ömrünün 55-ci ilində dünya ilə vidalaşması xəbəri sənət aləmi üçün ağır itki oldu.

Ömrü uzun olmasa da, o, sənətdə silinməz izlər qoyub. Elçin Məmmədov yaddaşlarda sadə, səmimi, gülərüz, şöhrətin dəyişdirə bilmədiyi nadir insanlardan biri kimi qalıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Sənət dünyası

# Neftçi-musiqiçi

## Amma söhbət məşhur "Bəxtiyar" filminin eyniadlı personajından getmir

**Saksafon ifaçısı Rüfət Yusupovla iştirakçısı olduğumuz bir tədbirdə tanış olduq. Tanış olduq deyəndə ki, əslində, onun saksafonda ifa etdiyi bir-birinə bənzəməyən musiqi nömrələri içi biz qarışıq ətrafına yığılanları sehirləmişdi. Bu sehrin cazibəsindən çıxmaq mümkün deyildi. Çünki Rüfətin ifalarında nəsə bir qeyri-adilik, şirinlik hiss olunur, peşəkarlıq duyulurdu.**



Rüfət 1982-ci ildə Bakıda dünyaya göz açıb. Orta təhsilini başa vuraraq neftçi olmaq arzusu ilə Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olub. Bakalavr, magistr təhsili alıb. Mərhum akademik Azad Mirzəcanzədinin tələbəsi olub. Sonra ordu sıralarına çağırılıb. Vətən qarşısındakı borcunu yerinə yetirib.

Xidmətdən qayıtdıqdan sonra Rüfətin həyatının yeni mərhələsi başlayıb. 2005-ci ildə müsabiqə yolu ilə BP şirkətinə işə qəbul olub. Bilik və bacarığını nəzərə alaraq onu neft hasilatı üzrə əməliyyat şöbəsinə işə götürüblər. Elə o vaxtdan bu günə qədər həmin şirkətdə çalışır. İşindən ayrılmayan Rüfət sonrakı illər musiqi dünyasının qapısını döyür. 2009-2013-cü illər Azərbaycan Milli Konservatoriyasında "Nəfəs alətləri" ixtisası üzrə təhsil alır. 2017-2025-ci illərdə "Şıx" sanatoriyasında mədəni-kütləvi işin təşkilatçısı vəzifəsində çalışmağa başlayır. 2022-ci ildən isə "Kurort" QSC-nin Mədəni-Kütləvi qrupun rəhbəri kimi fəaliyyət göstərir.

Keçdiyi ömür yolunu vərəqlədikcə onu öyrənmək istədik ki, görəsən, neftçi Rüfət Yusupovda musiqiyə, saksafon ifa etməyə həvəs necə və nə vaxtdan oyanıb. Bunu özündən soruşduq. Dedi ki, musiqiyə həvəsi oyananda hardasa 20 yaşı var idi: "Həmin vaxt artıq Azərbaycan Dövlət Neft Akademiyasının sonuncu kursunda oxuyurdum. Amma musiqi təhsili də almaq istəyirdim. Arzumu reallaşdırmaq üçün yaşadığım ünvana yaxın olan musiqi məktəbinə üz tutdum. Çox keçmədi ki, burada piano ixtisası üzrə təhsil almağa başladım. Məndə milli musiqimizə marağı piano müəllimim Zaur Rüstəmov oyatdı. Onun köməyi ilə musiqinin sirlərinə daha da dərindən bələd oldum. Zaur müəllim uzun illər idi ki, Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının pianoçusu kimi fəaliyyət göstərirdi. Həmin illər o məni özü ilə ansamblın bütün məşq, çəkiliş və səsyazmalarına aparırdı. Musiqi aləmində tanınan belə nümunəvi, peşəkar ansamblın ifasını dinləyə-dinləyə, kollektivin zəngin milli repertuarlarını öyrənir, bütün alətlərin solo ifasının üslubunu diqqətlə izləyərdim".

Rüfət Yusupovun nəfəsli alətlərə sevgisi də həmin günlərdə oyanıb. Sözünə davam edən həmsöhbətimiz o zamanlardan söz açaraq dedi ki, ansamblda solo partiyalarını səsləndirən nəfəs alətləri (klarnet, balaban, tütək) diqqətini daha çox cəlb edirdi: "Amma buna baxmayaraq, nəfəsli alətlərin sirlərinə yiyələnmək, onlarda mahnı ifa etmək o ərəfələrdə heç ağlıma da gəlmirdi. Bəzən tale insanın özünün xəbəri olmadan onun gələcək yolunu təyin edir, sürprizlər hazırlayır. Elə mənim saksafonda ifa etməyi öyrənməyim də buna oxşadı. Günlərin birində təsadüfən konservatoriyanın nəfəs alətləri müəllimi Çingiz Mehdiyevlə tanış olduq. Söhbət zamanı müəllim nəfəsli alətlərə olan marağımı hiss etdi. Məni nəfəsli alətləri çoxlarından yaxşı öyrənəcəyimə əmin etdikdən sonra dərslərə başladıq. Müəllim əvvəlcə klarnet, sonra isə saksafon dərslərini tədris etdi. Dərslər davam etdikcə müəllimin etimadını doğruldurdum. Bacarığımı görən Çingiz müəllim məni konservatoriyaya, nəfəs alətləri ixtisasına qəbul olmağa hazırlamağa başladı".

Beləcə, Rüfət Yusupov yavaş-yavaş taleyini musiqi dünyasına bağlayır. Müəllimi Çingiz Mehdiyevdən nəfəs alətlərində ifa etməyi öyrəndikdən sonra ikinci ali təhsil almaq üçün konservatoriyaya qəbul olur.

İfaçılıq üslubundan söz açan Rüfət dedi ki, xalq musiqisinə olan sevgisi və dərin bələdçiliyi işini xeyli asanlaşdırır. Saksafonun sirlərinə yiyələndikcə onda bu alətdə təkcə Avropa musiqisi deyil, Azərbaycan xalq və bəstəkar musiqilərini də ifa etmək istəyi yaranırdı: "Bu janrda ifa etmək həvəsini məndə o illər efirlərdə tez-tez görünən mahir saksafonçu Eldar Zeynalov oyatdı. Onun saksafonda səsləndirdiyi "Şükriyyə", "Abşeron", "Mənim əzizlərim", "Dalğalar", "Qurban adına" və başqa ifaları bu alətin ecazkar səsində, avazında həm də milli ruhun gizli və sirli daşıyıcısı olduğunu qəlbimə sızdırdı. Bu böyük sənətkarla tanış olmaq, ondan saksafon dərsləri almaq arzusu ilə yaşayırdım. Bu yerdə yenə də təsadüf köməyimə çatdı. Onun Süleyman Ələsgərov adına 1 nömrəli İncəsənət Məktəbində işlədiyini öyrəndim və bu böyük sənətkarla görüşüb tanış oldum. Eldar müəllimə saksafonda bu alətə xas olan estrada, pop, caz üslubunda yox, məhz milli ruhda musiqilər ifa etmək istədiyimi bildirdim. O, əvvəlcə buna tərəddüd etsə də, kiçik sınaqdan sonra razılaşdı. Gördü ki, israrlıyam".

Gündüzlər neftçi kimi çalışan Rüfət Yusupov işdən sonra musiqi dünyasının qapılarını açır. Gündəlik olaraq "Kurort" QSC-nin bütün sanatoriya filiallarında canlı konsert proqramları ilə çıxış edir. Bir-birindən şən musiqilərlə sanatoriyalarda müalicə alan insanların zövqünü oxşayır, könüllərini açır. Rüfət deyir ki, AHİK və "Kurort" QSC-nin yeni rəhbərliyinin onlara olan etimadı sayəsində 8 nəfərdən ibarət ansambl yaradıb: "Hazırda ansamblın genişləndirilməsi barədə düşünürəm. Rəngarəngliyi təmin etmək üçün konsertlər zamanı milli alətlərlə yanaşı, saksafon, piano, skripka kimi Avropa alətlərində də musiqi nömrələri səsləndirmək istəyirik".

Maraqlı söhbətinə davam edən Rüfət Yusupov daha sonra sözünə davam edərək bildirdi ki, həm neftçi, həm də musiqiçi olduğuna görə özünü xoşbəxt sanır: "Mənə elə gəlir ki, onlar bir-birini tamamlayır, qoşa qanad kimi ürəyimdə, qəlbimdə çırpınır". Gələcək planlarından söz açan Rüfət dedi ki, dinləyicilərə rahatlıq gətirən ideyaların həyata keçirilməsi istiqamətində fikirləşir: "Yaratdığımız yeni ansamblın daha geniş və rəngarəng proqramla çıxış etməsi üçün üzərimizə düşən vəzifələri can-başla yerinə yetirmək bacarığındayıq. Təəssüflər olsun ki, əvvəllər mədəni-kütləvi sahəyə soyuq, laqeyd münasibət bəslənmişdi. Bu işə ixtisası olmayan, musiqi sənətindən o qədər də biliyi olmayan şəxslər cəlb olunmuşdu. Artıq bu, arxada qalıb. Çalışırıq ki, sanatoriyalarda müalicə olunan insanlar üçün daha keyfiyyətli, daha zövqlü canlı musiqi gecələri təşkil edək".



Söhbətimizin sonunda Rüfət Yusupovdan övladlarından onun yolunu davam etdirənlərin olub-olmadığını soruşduq. Dedi ki, 10 yaşlı oğlu İsaxan saksafona böyük maraq göstərir: "Marağını nəzərə alaraq onu Qara Qarayev adına İncəsənət Məktəbində saksafon sinfinə qoymuşam. Artıq 7 aydır ki, oxuyur. İxtisas müəllimi ilə bərabər, mən də İsaxanın gündəlik dərsləri ilə maraqlanıram. Oğlum hazırda böyük bəstəkar Q.Qarayevin "Kiçik vals" əsəri üzərində çalışır. Bir neçə dəfə də məktəbdə keçirilən konsertdə bacarığını nümayiş etdirib".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İçərişəhər tarixində ilk: sakinlərin sistemli uçotuna başlanılıb

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ərazidə idarəetmə mexanizmlərinin müasirləşdirilməsi və sakinlərlə işin effektivliyinin artırılması məqsədilə strateji layihəyə start verib.**

İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İçərişəhər tarixində ilk dəfə olaraq sakinlərin genişmiqyaslı statistik uçotu aparılır. Prosesin şəffaf və mütəşəkkil idarə olunması, habelə məlumatların düzgün emalı məqsədilə xüsusi komissiya yaradılıb.

Bu addım ilk növbədə sakinlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına və onlara göstərilən xidmətlərin fərdiləşdirilməsinə xidmət edir. Proses əhalinin dəqiq sayını, sıxlığını və məskunlaşma coğrafiyasını müəyyən etməyə imkan verəcək ki, bu da gələcək sosial proqramların və infrastruktur layihələrinin daha səmərəli planlaşdırılması üçün fundamental baza rolunu oynayacaq. Toplanılan məlumatlar sakinlərin real ehtiyaclarını düzgün təhlil etməyə, kommunal xidmətlərdən tutmuş sosial dəstək tədbirlərinədək hər bir addımın məhz vətəndaş məmnuniyyətinə hədəflənməsinə şərait yaradacaq.

Vətəndaşların rahatlığı üçün məlumatlar həm kağız, həm də elektron formada toplanılır. Şəxsi məlumatların məxfiliyinə qanunvericilik səviyyəsində tam təminat verilir. Yaradılan məlumat bazasından yalnız sakinlərin həyat keyfiyyətini yüksəldəcək strateji qərarların qəbulu üçün istifadə olunacaq.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi hər bir sakini bu əhəmiyyətli əməkdaşlıqda fəal iştirak etməyə dəvət edir.

# 4-cü Bakı Müasir Musiqi Günləri Festivalında yerli və xarici ifaçılar bir araya gələcək

**Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi, Bakı Müasir Musiqi Cəmiyyətinin təşkilatçılığı ilə mayın 18-dən 24-dək "4-cü Bakı Müasir Musiqi Günləri" Festivalı keçiriləcək.**




AZƏRTAC xəbər verir ki, növbəti dəfə müasir musiqi sahəsində fəaliyyət göstərən yerli və xarici bəstəkar və ifaçılar bir araya gələcək. Builki festivalın da missiyası ölkəmizin dünya müasir musiqi həyatında təmsilini gücləndirməkdir.

Festivalda proqrama daxil olan XX-XXI əsr bəstəkarlarının əsərlərini həm yerli musiqi kollektivləri "Cadenza" orkestri, BCMS ansamblı, solistlər, həm də nüfuzlu müasir musiqi ansamblları olan "Catinblack", "C2E2 Ensemble", eləcə də müxtəlif ölkələrdən dəvət olunmuş ifaçı solistlər və məruzəçilər - Szilard Benes, Aleksey Potapov, Raçel Valker və b. ifa edəcək.

Festival proqramı səhər, günorta, axşam seanslarından ibarətdir və ictimaiyyətə açıqdır. Proqram çərçivəsində Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Muzey Mərkəzi, Qara Qarayevin ev-muzeyi kimi aparıcı konsert zallarında həm peşəkar musiqiçilər, həm də müasir musiqi ilə maraqlanan hər kəs üçün açıq olan vörkşoplar, mühazirələr, eləcə də axşam konsertləri keçiriləcək.

Proqram dünya premyeraları da daxil olmaqla, 40-a yaxın əsəri əhatə edir. İfa olunacaq bəzi əsərlər xüsusi olaraq bu festival üçün yazılmışdır. Bakı Müasir Musiqi Günləri Festivalının son günündə ənənəvi olaraq Azərbaycan dilində subtitrlərlə hazırlanmış nüfuzlu dünya bəstəkarlarından biri olan Morton Feldman haqqında film nümayişi olacaq. Bu tədbirə giriş üçün əvvəldən qeydiyyat tələb olunur.

Festival haqqında daha ətraflı məlumatı rəsmi internet saytından və sosial şəbəkə hesablarından əldə etmək olar.

# Qədim şəhərin sirli divarları: Narınqalaya səyahət

**Şəmkir həm yerli, həm də xarici turistlərin, xüsusilə də qədim sivilizasiyaların izinə düşənlərin ən sevimli məkanlarından biridir.**



Rayonun çoxəsrlik tarixini bu günümüzə daşıyan Qədim Şəmkir şəhər yeri isə ziyarətçiləri sanki zaman maşınına mindirərək əsrlər əvvələ aparır. Buraya qədəm qoyan hər kəs qədim divarların pıçıltısını eşidir, keçmişlə üz-üzə dayanaraq tarixin dərin qatlarını kəşf edir.

Şəmkirçayın sol sahilində, ətraf ərazilərdən 8,5 metr hündürlükdə yerləşən Narınqala qədim Şəmkirin strateji ərazisi, şəhərin ən mühüm inzibati və müdafiə mərkəzi olub. Təxminən 1 hektarlıq ərazini əhatə edən bu möhtəşəm istehkamın qalın divarları, bürcləri və möhkəm müdafiə sistemi qədim şəhərin gücünü və əzəmətini bu gün də qoruyub saxlayır. Divarların bəzi hissələrində hündürlüyün 7,5 metrə çatması, qalınlığın isə 4 metrə yaxın olması bu qalaya daha da möhtəşəm görünüş verir.

Narınqalanın ərazisində aparılan arxeoloji qazıntılar burada vaxtilə qaynayan həyatın izlərini üzə çıxarıb. IX-X əsrlərə aid monumental tikililər, sütunlu həyətlər, çoxsaylı otaqlar, təndirxanalar və məişət sahələri qədim şəhər həyatının necə zəngin olduğunu göstərir. 2000 kvadratmetr sahəni əhatə edən bu kompleks sanki Orta əsrlər dövrünün canlı bir şəhər maketini xatırladır. Burada gəzərkən insan özünü yüz illər əvvələ qayıtmış kimi hiss edir.

Qalanın şimal-qərb sektorunda iki paralel küçə boyunca yerləşən tikililər, əczaxana qalıqları, hərbçi otaqları və zindan izləri isə bu ərazinin yalnız müdafiə qalası deyil, həm də mühüm inzibati və ictimai mərkəz olduğunu sübut edir. Burada aşkar edilən təndirxanalar, ocaqlar, mətbəx qalıqları qədim şəhər sakinlərinin gündəlik həyatından xəbər verir.

Narınqalanın ən maraqlı xüsusiyyətlərindən biri isə qədim mühəndis qurğularıdır. Qala divarları arasında yaradılmış dar dəhliz, su drenaj sistemi və Səlcuq dövrünə aid ovdan tipli hidrotikinti bu şəhərin inkişaf etmiş infrastrukturundan xəbər verir. Pilləkənli su qurğuları, havalandırma sistemi və su təchizatı ilə bağlı mühəndis həlləri qədim Şəmkirin dövrünün qabaqcıl şəhərlərindən biri olduğunu göstərir.

Qazıntılar zamanı aşkar edilən saxsı qablar, məişət əşyaları, sikkələr və tikili qalıqları isə bu ərazinin vaxtilə mühüm ticarət və mədəniyyət mərkəzi olduğunu təsdiqləyir. Bu gün həmin ərazi tarixsevərlərin, fotoqrafların və səyahət həvəskarlarının ən çox maraq göstərdiyi yerlərdən birinə çevrilib.

***AZƏRTAC***

# Rumıniya mediası: "Formula-1" Azərbaycan Qran-prisi üçün xüsusi proqram hazırlanıb

Rumıniyanın "iAMSport" nəşri sentyabr ayında Bakıda keçiriləcək "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, yazıda yarışın builki təqvimdə ən diqqətçəkən idman tədbirlərindən biri olacağı qeyd olunub. Bildirilib ki, 2026-cı il Qran-prisi Bakıda "Formula-1"in keçirilməsinin 10 illiyi ilə üst-üstə düşdüyü üçün təşkilatçılar xüsusi proqram hazırlayıblar.

Nəşrin yazdığına görə, təşkilatçılar yarış həftəsonunda tribunalarda yüksək tamaşaçı marağı gözləyirlər. Məqalədə qeyd olunub ki, yubiley münasibətilə beynəlxalq şou proqramları və böyük musiqi tədbirləri də təşkil ediləcək.

Məşhur musiqiçilər Kelvin Harris və Keti Perrinin yarış həftəsonunda konsert proqramı ilə çıxış edəcəkləri vurğulanıb. Qeyd olunub ki, "Formula-1" artıq yalnız idman yarışı deyil, eyni zamanda turizm, əyləncə və beynəlxalq imic platformasına çevrilib.




Məqalədə Azərbaycan Qran-prisinin "Formula-1" təqvimində ən maraqlı şəhər traslarından biri hesab olduğu bildirilib. Sürətli düzlüklər, dar döngələr və tarixi İçərişəhər fonunda keçirilən yarışların hər il dramatik və gözlənilməz nəticələrlə yadda qaldığı qeyd olunub.

Rumıniya nəşrinin təhlilinə görə, Azərbaycan son illərdə beynəlxalq idman tədbirləri vasitəsilə özünün qlobal imicini və turizm potensialını gücləndirməyə çalışır: "Formula-1" yarışları Bakının beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayır və şəhərin müasir infrastrukturu ilə tarixi memarlığını bir araya gətirən simvolik tədbir kimi qiymətləndirilir".

Məlumatda vurğulanıb ki, "Formula-1" rəhbərliyi Azərbaycan Qran-prisinin 2030-cu ilə qədər təqvimdə qalacağını açıqlayıb. Analitiklər hesab edirlər ki, bu qərar Bakının beynəlxalq idman mərkəzi kimi mövqeyini daha da gücləndirəcək və ölkəyə əlavə turist axınının artmasına şərait yaradacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Azərbaycan - Slovakiya: siyasi əlaqələr yüksək səviyyədədir
COP29-dan WUF13-ə
Gələcəyin qurucusu
Paytaxtımız yaşıllıqlar və parklar şəhərinə çevrilir
"Binokl diplomatiyası" sülhə xidmət etmir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Si Cinpin ABŞ və Çinin tərəfdaş ölkələr kimi qalmalı olduğuna əminliyini bildirib



ÇXR Sədri Si Cinpin Amerika lideri Donald Trampla görüşdə bildirib ki, Çin və ABŞ arasında Tayvanla bağlı münaqişə yarana bilər. Lakin bu xəbərdarlığa baxmayaraq, Çin Prezidenti iki ölkənin tərəfdaş kimi qalmalı olduğuna əminliyini ifadə edib. Bu barədə CNN telekanalı xəbər verib.

Əgər Tayvana səhv münasibət göstərilərsə, Çin və ABŞ arasında toqquşmalar və hətta münaqişələr yaranacaq və bu da istənilən münasibəti təhlükəyə atacaq. Bunu Çin lideri Si Cinpin ABŞ Prezidenti Donald Trampla görüşdə bildirib.

Pekinin mərkəzinə çatdıqdan sonra Tramp və Si Cinpin hərbi paradda iştirak ediblər və Çin parlamentinin binası olan Böyük Xalq Zalına daxil olublar. ABŞ Prezidenti çıxışında deyib: "Sizin dostunuz olmaqdan şərəf duyuram və Çin ilə ABŞ arasındakı münasibətlər əvvəlkindən daha yaxşı olacaq. Biz yaxşı yola gedirik. Çətinliklərimiz olub, amma onları dəf etmişik. Bəzi insanlar bunu bilməyə bilər, amma problemlərimiz olanda onları çox tez həll etmişik. Mən sizə zəng etmişəm, siz də mənə zəng etmisiniz. Hamıya deyirəm ki, siz böyük lidersiniz". Si Cinpin öz növbəsində bildirib ki, bütün dünya görüşümüzü izləyir: "Dəyişikliklər planetdə getdikcə artan templə baş verir, bir əsrdə baş verməyən dəyişikliklər olur və beynəlxalq vəziyyət daim dəyişir və gərgin olaraq qalır". Si Cinpin həmçinin ABŞ və Çinin "Fukidid tələsi"ni dəf edə biləcəyinə ümid etdiyini bildirib. Qədim yunan tarixçisi və sərkərdəsi Fukididin adını daşıyan bu termin ənənəvi olaraq güclü bir ölkənin rəqabətə və münaqişəyə səbəb olan yeni bir gücdən qorxmasını ifadə edir. Hazırda amerikalı politoloq Qrem Allison tərəfindən populyarlaşdırılan, yeni, yüksələn bir gücün mövcud böyük bir dövləti beynəlxalq hegemon kimi əvəz etmək təhlükəsi ilə üzləşdiyi zaman müharibəyə meyilliyi təsvir etmək üçün bir deyimdir. Bu termin, əsasən ABŞ ilə Çin arasında potensial münaqişəni təsvir etmək üçün istifadə olunur. Sonra Çin lideri soruşub: "Qlobal problemləri həll etmək və dünyaya daha çox sabitlik gətirmək üçün birlikdə işləyə bilərikmi? Dünyamızın, iki xalqımızın və bəşəriyyətin gələcəyinin maraqları naminə ikitərəfli münasibətlərimiz üçün daha parlaq bir gələcək qura bilərikmi?"

Çin Prezidenti iki ölkənin rəqib yox, tərəfdaş kimi davranmalı olduğuna əminliyini ifadə edib, çünki bu, təkcə hər iki tərəfə fayda vermir, həm də bütün dünya üçün fayda deməkdir. Sinhua agentliyinin məlumatına görə, Donald Tramp və Si Cinpin arasında danışıqlar iki saatdan bir qədər az davam edib. Tesla və Apple da daxil olmaqla bir neçə aparıcı Amerika şirkətinin rəhbərləri də görüşə qatılıblar.

Tramp-Si danışıqlarının əsas mövzularından biri ABŞ və İsrailin İranla müharibəsi olub. ABŞ dövlət katibi Marko Rubionun dediyinə görə, Vaşinqton Hörmüz boğazının İran tərəfindən blokadasının qaldırılmasında Çinin köməyinə ümid edir. Rubio qeyd edib ki, Pekin də bu strateji əhəmiyyətli su yolunun açılmasında maraqlıdır, çünki "Çin gəmiləri də orada ilişib qalıb". Bundan əlavə, Çinin ixracyönümlü iqtisadiyyatı enerji böhranının qlobal təsirindən əziyyət çəkir ki, bu da Çin mallarına tələbatı azaldır.

Tramp Si Cinpinlə görüşməzdən əvvəl ondan Çin iqtisadiyyatını böyük Amerika texnologiya şirkətlərinə "açmasını" xahiş edəcəyini bildirmişdi. O, əlavə etmişdi ki, İranla bağlı uzun müzakirə gözlənilir. Lakin o, münaqişəyə son qoymaq üçün Pekinin köməyinə ehtiyacı olmadığını da vurğulamışdı.

Çin liderinin həmçinin ABŞ-nin Tayvana silah satışını dayandırmağa çalışacağı gözlənilir. Onun dediyinə görə, Tayvan boğazında sülhün və sabitliyin qorunması iki ölkənin "ən böyük ortaq marağı"dır. O, Tayvan məsələsinin ABŞ-Çin münasibətlərində əsas məsələ olduğunu qeyd edib. Çin lideri bildirib ki, bu məsələnin düzgün idarə olunması ilə münasibətlər sabit qala bilər, lakin əks halda "ikitərəfli əlaqələri ciddi təhlükə altına salacaq münaqişələr mümkündür". Si həmçinin "Tayvanın müstəqilliyi" və Tayvan boğazında sülhün "od və su kimi" bir araya sığmadığını bildirərək, ABŞ-nin son dərəcə ehtiyatlı yanaşmasının vacibliyini vurğulayıb.

BBC-nin məlumatına görə, Pekinə eniş edərkən Trampı ölkənin ən yüksəkvəzifəli şəxslərindən biri olan vitse-prezident Han Çjen qarşılayıb. Onun uçuş-eniş zolağında olması Çin tərəfindən hörmət əlaməti hesab edilir.

Axşam saatlarında ABŞ liderinin şərəfinə dövlət ziyafəti verilib. Cümə günü Tramp Çin liderlərinin yaşadığı və işlədiyi Pekindəki eyniadlı gölün sahilində yerləşən Çjunnanhay məhəlləsinə gedəcək. Bu səfər zamanı onların Si Cinpinlə şəkil çəkdirməsi, həmçinin daha bir ikitərəfli görüş və işgüzar nahar etməsi gözlənilir. Daha sonra Donald Tramp rəsmi vida mərasimi üçün hava limanına yollanacaq və Amerika Prezidentinin təyyarəsi ABŞ-yə geri uçacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "TEMİRLİ QRUP" ASC-nin səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 15:00-da "TEMİRLİ QRUP" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcək.
***İclasın gündəliyində aşağıdakı məsələlər durur:***

*1. Səhmdar cəmiyyətin idarəetmə orqanının 2025-ci il üzrə hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.*
*2. "TEMİRLİ QRUP" ASC-nin mülkiyyətində olan əmlakın icarəyə verilməsi və satılması.*

Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün əlaqə telefonuna zəng edərək məlumat almaq olar. Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.
**İclasın keçiriləcəyi ünvan: Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Camal Hacıəliyev küçəsi, 12, ev 5**
**Əlaqə telefonu : (050) 330-13-76**

***"TEMİRLİ QRUP" ASC***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili" adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 01 iyun 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 02 iyun 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

# Hava əsasən yağmursuz keçəcək

**Mayın 15-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 15-18° isti, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 750 mm civə sütununa enəcək. Nisbi rütubət 65-75% olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər və axşam bəzi dağlıq ərazilərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 25-30° isti, dağlarda gecə 7-12° isti, gündüz 16-21°, bəzi yerlərdə 25° isti olacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi
**ZAKİR ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3811
Sifariş 628

Qiyməti 60 qəpik